QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 232 (5704) **7 dekabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak edib



Səh 2

**Azərbaycanın dövlətçilik tarixinə yeni səhifələr yazan dahi ŞƏXSİYYƏT**



3

**Yuri Lujkov: Heydər Əliyev böyük qəlbli insan idi**



4

**Müdafiə naziri ön xətt bölmələrinin döyüş hazırlığını yoxlayıb**



5

**Dövlət Miqrasiya Xidmətinin daha bir bölməsi "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsində fəaliyyətə başlayıb**



5

**"Həyata keçirilən islahatlar insanların daha yaxşı yaşaması üçündür"**



6

**"Nüfuzlu beynəlxalq təşkilatlar da Azərbaycanın terrorçuluqla mübarizədə apardığı işlərə böyük önəm verir"**



6

6

**"Lazerev klubu"nda terrorçuluğu əsas vasitə kimi seçən qüvvələr cəmləşib"**



7

**Erməni siyasətçi: Paşinyan Ermənistan-Rusiya münasibətlərini məqsədyönlü şəkildə pozur**



9

**"Lazerev klub"unda yer alanlar qaragüruhçulardır"**



# Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak edib

***Dekabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Rusiyaya işgüzar səfərə gəlib.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısını Sankt-Peterburq şəhərindəki Pulkovo-1 hava limanında şəhərin vitse-qubernatoru Nikolay Bondarenko, xarici əlaqələr komitəsinin nazir statuslu sədri Yevgeni Qriqoryev və digər rəsmi şəxslər qarşıladılar.

Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Prezident Kitabxanasına gəldi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı. Prezidentlər birgə foto çəkdirdilər. Sonra MDB dövlət başçıları birgə foto çəkdirdilər.







# "China Daily" qəzetində Azərbaycanla bağlı məqalə dərc olunub

***Azərbaycan Şərqi Avropa və Qərbi Asiya arasındakı yolların kəsişməsində yerləşir. Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsündə iştirak edərək, bu yaxınlarda Şanxayda keçirilmiş 1-ci Çin Beynəlxalq İdxal Sərgisi də daxil olmaqla, Çin ilə müxtəlif layihələrdə əməkdaşlıq edir.***

AZƏRTAC xəbər verir ki, bu barədə Çinin nüfuzlu "China Daily" qəzetində dərc olunan "Azərbaycan Çinə gələndə..." başlıqlı məqalədə qeyd olunur.

Qəzet bu yaxınlarda Çinin Benbu şəhərində keçirilmiş 2-ci Çin ticarət və mədəni mübadilə beynəlxalq forumu, paralel olaraq Çin beynəlxalq musiqi alətləri sərgisi çərçivəsində təşkil edilmiş "Əsrarəngiz Azərbaycan musiqisi Benbu şəhərində" adlı konsertdən də söz açır. Bildirilir ki, Azərbaycan musiqi irsində xüsusi yeri olan muğam sevgi və hörməti tərənnüm edir. Özünəməxsus quruluşu olan muğam musiqiçilərin improvizasiyalı ifasına uyğun bir musiqi janrıdır. Çin ilə Azərbaycan musiqisi arasında böyük fərqlər olsa da, musiqi müxtəlif xalqlar arasında kommunikasiya üçün ən yaxşı vasitədir.

"China Daily" Çinin Benbu şəhərində tikilən "Memarlıq və mədəniyyət sərgisi parkı" layihəsini həyata keçirən "Shanghai Xiangjiang" sənaye şirkətinin rəhbəri Ma Quosiana istinadla yazır ki, həmin parkda Azərbaycanın mədəniyyət və incəsənət pavilyonu yaradılacaq.

Məqalədə Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallının Memarlıq və mədəniyyət sərgisi parkında açılacaq Azərbaycan pavilyonu ilə bağlı fikirlərinə də yer verilib. Səfir bildirib ki, pavilyon Azərbaycan-Çin ikitərəfli münasibətlərin inkişafına müsbət təsir etməklə yanaşı, xalqlarımız arasında dostluq körpüsü rolunu oynayacaq. Bu, Azərbaycanın Çində ilk mədəniyyət pavilyonu olaraq, ölkənin mədəni irsi, o cümlədən memarlığını, musiqisini, xalçaçılıq sənətini və digər incəsənət növlərinə aid işləri nümayiş etdirəcək. Pavilyon Çin xalqının Azərbaycan mədəniyyətini yaxından tanıması üçün yaxşı bir imkan olacaq.



CHINADAILY Home / Culture / Music and Theater

When Azerbaijan comes to China

chinadaily.com.cn | Updated: 2018-12-05 13:45

China Daily App Download

Azerbaijani ambassador in Beijing Akram Zeynalli speaks at the China International Musical Instruments Expo [Photo provided to chinadaily.com.cn]

Ambassador Akram Zeynalli outlined his hopes for the new center:

"I believe that the landing of the gallery will further strengthen the bilateral relationship between China and Azerbaijan and

# Azərbaycanın dövlətçilik tarixinə yeni səhifələr yazan dahi

## ŞƏXSİYYƏT

***Azərbaycanın ictimai-siyasi və iqtisadi tarixində qazanılmış çoxsaylı uğurların əldə edilməsində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin misilsiz xidmətləri olub.***

İstər dövlətimizin, istərsə də xalqımızın həyatının bütün sferalarındakı tərəqqi və inkişaf, milli-mənəvi yüksəliş, məhz Ulu Öndərin ictimai-siyasi və iqtisadi sahədə apardığı uğurlu islahatların nəticəsidir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyəti böyük epoxanı əhatə edir. Bu, müxtəlif illəri əhatə edən mürəkkəb, çətin və ziddiyyətlərlə dolu proseslər Azərbaycanın dövlət müstəqilliyinin təməlinin möhkəmlənməsinə səbəb oldu. Ulu Öndər Heydər Əliyevin böyük siyasətdə keçdiyi çətin və şərəfli yolun hər səhifəsi Azərbaycan salnaməsinə daxildir. "Hamımızın bir vətəni var. Bu - Azərbaycandır!"- deyən Dahi Öndər Heydər Əliyev istər sovet dövründə, istərsə də müstəqillik illərində xalqı və dövləti Azərbaycan torpağı üçün əvəzsiz işlər gördü. Bu gün hansı sahəyə diqqət yetirsək, burada Ulu Öndərin əməyini və müdrik siyasətini görə biləcəyik. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq, taleyüklü bir dövrdə əməlləri, cəsarətli addımları və milli təfəkkürü ilə Azərbaycan tarixinə, Azərbaycan ictimai-siyasi fikir tarixinə yeni səhifələr əlavə etdi. Azərbaycanın xoşbəxt gələcəyi uğrunda göstərdiyi titanik fəaliyyəti nəticəsində, qısa bir zamanda, Bakı tikinti meydanına çevrildi. Paytaxtımızda parklar, xiyabanlar və meşə zolaqları salındı. Gül-çiçəyə və yaşıllığa bürünən Bakı Neapolla müqayisə olundu. Yeni-yeni zavod və fabriklər açıldı, mikrorayonlar və yaşayış sahələri salındı. Elmə, sənətə, ədəbiyyata, mədəniyyətə göstərilən qayğı və diqqət milli intibaha meydan açdı. İctimai-siyasi həyatın və iqtisadiyyatın bütün sahələrində qazanılan yüksək nailiyyətlərə görə ölkəmiz keçici bayraqlara layiq görüldü. Azərbaycan Respublikası aqrar məmləkətdən yüksək inkişaf etmiş sənaye ölkəsinə çevrildi. Belə nəhəng işlərin müəllifi, məhz Ulu Öndər Heydər Əliyev oldu. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxardı. Sovet dövründə, Dahi Öndər Heydər Əliyev milli-hərbi kadr hazırlığı sahəsində əhəmiyyətli addım atdı. Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı ki, bu da azərbaycanlılar arasında hərbi sahəyə marağın kütləvi xarakter almasına səbəb oldu. Heydər Əliyevin təşəbbüsü ilə hər il yüzlərlə azərbaycanlı İttifaqın ən nüfuzlu ali məktəblərinin iqtisadiyyat, hüquq, diplomatiya, dövlət idarəçiliyi, beynəlxalq münasibətlər və texniki elmlər kimi mühüm elm sahələrinə təhsil almağa göndərilirdi. Bu siyasət Heydər Əliyev tərəfindən Azərbaycan dövlətçiliyinin intellektual bazasının yaradılmasına yönələn cəsarətli addımlar idi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci mərhələsi yenicə qazanılmış, sadəcə, elan olunmuş dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan ölkəmizin ictimai-siyasi və iqtisadi-hərbi problemlərinin uğurlu həlli ilə tarixi hadisəyə çevrilmişdir. O vaxt Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Heydər Əliyev fenomeni, cəsarəti və müdrikliyi qoruyub-saxladı. Əgər bu böyük Şəxsiyyət olmasaydı, Azərbaycanı heç bir qüvvə qurtara bilməzdi. Ulu Öndər Heydər Əliyev böyük uzaqgörənliklə vurğulayırdı ki, "hüquqi cəhətdən müstəqil olmaqla real müstəqillik arasında çox böyük məsafə və olduqca ciddi maneələr var". Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin müstəqilliyin təməlini möhkəmlətdi və ölkədəki abhava tam dəyişdi. Ulu Öndər Heydər Əliyev fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da öz müdrik Liderinə güvənməsi və geniş xalq məhəbbəti bir vəhdətdə birləşdiyindən, Azərbaycan dövlətçiliyi məhvolma təhlükəsindən xilas oldu. Qondarma "Talış-Muğan Respublikası"nın ləğv edilməsi, Vətənimizin ərazi bütövlüyünün qorunubsaxlanılması, ölkənin parçalanma təhlükəsinin aradan qaldırılması, Ulu Öndər Heydər Əliyevin, müstəqilliyin, gerçək mənada, möhkəmləndirilməsi yollarındakı danılmaz böyük xidmətidir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dayandırması, atəşkəs sazişinə nail olması, qısa müddətdə mütəşəkkil və nizamlı ordunun yaradılması Ulu Öndərin müstəqillik uğrunda mübarizəsində mühüm tarixi hadisələrdən biridir.

Ümummilli Liderimiz Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində, ölkədə sabitlik yarandı. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Ulu Öndər Azərbaycan dövlətçiliyini faciələrdən və iflasdan xilas etdi. Siyasi sabitliyi təmin etməklə yanaşı, eyni zamanda, demokratik, qüdrətli dövlət modeli konsepsiyasını da həyata keçirməyə nail oldu. Bu müddətdə siyasi sabitliyin tam təmin olunması dövlətin gələcək iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirməyə imkan yaratdı. Sosial-iqtisadi və hüquqi-siyasi sahələrdə kardinal islahatlar proqramının həyata keçirilməsinə start verildi.



***"Hamımızın bir vətəni var. Bu - Azərbaycandır"!***

*Heydər Əliyev*

Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Azərbaycan demokratik-hüquqi və dünyəvi dövlət kimi, ilk dəfə olaraq, insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi. Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə, dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı. Milli neft strategiyasının əsası qoyuldu. "Əsrin müqaviləsi" imzalandı. Neft strategiyasının beynəlxalq layihələrin və iqtisadi proqramların həllinə doğru istiqamətləndirilməsi ölkəmizdə bu tükənməz sərvətdən əldə olunan gəlirin qatqat artırılmasına rəvac verdi.

Bu gün xalqımız Ümummilli Lider Heydər Əliyevin siyasi varisi praqmatik düşüncəli, müasir dünya siyasətində yeri və rolu olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşib. Ulu Öndərin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyev bu gün müstəqil Azərbaycan dövlətinin qarantı missiyasını daşıyır. Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlülüyü, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin"- deyən Prezident İlham Əliyev imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə, obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini və insanların rifahının yüksəlməsini təmin edib.

**ZÜMRÜD BAYRAMOVA**

# Yuri Lujkov: Heydər Əliyev böyük qəlbli insan idi


AZN - 39.17 RUB EUR - 75.66 RUB
USD - 66.45 RUB BRENT - 61.73 USD
МОСКВА-БАКУ.RU
06 ДЕКАБРЯ 2018, ЧЕТВЕРГ, 11:51
Москва -1
Баку +11
RU EN
НОВОСТИ ПОЛИТИКА ЭКОНОМИКА ОБЩЕСТВО КУЛЬТУРА МНЕНИЯ МОСКВА-БАКУ.TV ТУРИЗМ СПЕЦПРОЕКТЫ

Новости дня

Впервые в истории Совета Европы азербайджанец избран на должность президента
06 Декабря, 11:46

Путин в Санкт-Петербурге примет участие в саммитах ЕАЭС и СНГ
06 Декабря, 11:22

В Баку опровергли сообщения о намерении закупить российские ракетные комплексы "Бал-Э"
06 Декабря, 11:10

Полиция ведет переговоры с вооруженным учеником школы на юго-востоке Москвы
06 Декабря, 10:57

В аэропортах Москвы задержано и отменено более 30 рейсов
06 Декабря, 10:37

Посол Германии на Украине выступил против ужесточения антироссийских санкций
06 Декабря, 10:31

В Канаде за нарушение

ПОЛИТИКА / #ГЕЙДАР АЛИЕВ #95-ЛЕТ #АЗЕРБАЙДЖАН #ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР #БАКУ #ЮРИЙ ЛУЖКОВ

ВЕЛИКИЕ В ИСТОРИИ. Гейдар Алиев – человек с большим сердцем. Воспоминания бывшего мэра Москвы Юрия Лужкова (видео)

Нана Хоштария, Константин Лобанков "Москва-Баку" 05.12.2018 10:15

СМОТРЕТЬ НА YOUTUBE

12 декабря исполнится 15 лет как ушел из жизни Гейдар Алиевич Алиев. Портал «Москва-Баку» публикует серию интервью, посвященных государственному деятелю мирового масштаба, общенациональному лидеру Азербайджана Гейдару Алиеву. Известные политики, коллеги и люди, знавшие Гейдара Алиевича Алиева, рассказывают о нем как о человеке и руководителе.

Самое популярное

Губернатор Ставропольского края Владимир Владимиров: В наших отношениях с Азербайджаном

В Центре внимания с Андреем Шляпниковым: Из-за чего Пашинян поругался с главой

Захарова: Заявления пресс-секретаря Пашиняна вызывают беспокойство как по форме, так и

Лавров 14 декабря примет участие в заседании Совета глав МИД ОЧЭС в Баку

В Баку проходит раунд переговоров по новому соглашению между

Наши видеопроекты

***Dekabrın 12-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dünyasını dəyişdiyi gündən 15 il keçir. "Moskva-Baku" portalında Moskvanın keçmiş meri Yuri Lujkovun bu böyük siyasi xadim haqqında xatirələri dərc olunub. AZƏRTAC həmin materialı təqdim edir.***

## Heydər Əliyev haqqında söz

***Dahi insan Heydər Əliyev haqqında xatirələrimin əvvəlində çox sevdiyim ölkənin - Azərbaycanın vətəndaşlarını salamlamaq istəyirəm: "Salam, əziz azərbaycanlı dostlarım!"***

Mən Heydər Əliyev haqqında danışmaq istərdim. Çünki Heydər Əliyev görkəmli şəxsiyyət idi. Özü də təkcə postsovet məkanında yox. Mən uzun illər sənaye sahəsində işləmişəm, Sovet İttifaqının ali dövlət hakimiyyəti orqanları ilə illər boyu qarşılıqlı fəaliyyətdə olmuşam və Heydər Əliyevi hələ sovet dövründən tanıyırdım. Heydər Əliyev haqqında çox danışmaq olar, bununla belə, düşünürəm ki, hərtərəfli, nadir şəxsi keyfiyyətlərinə, şəxsi qabiliyyətlərinə və elə bu səbəbdən dərin dövləti təfəkkürünə görə bu bənzərsiz insanın obrazını tam açmaq üçün vaxt çatmaz.

O, nadir potensiala malik insan idi. Tutduğu vəzifəsinə görə həm təhlükəsizlik, həm də təsərrüfat məsələləri ilə çox ciddi məşğul olan bənzərsiz şəxsiyyət idi. Mən bilirdim ki, Heydər Əliyevin əsas təhsili mülki sahəyə aiddir. O, memarlığa, iqtisadiyyata dərindən bələd idi... Həmin illərdə onun çalışdığı simasız hökumətdə olduqca nəzərəçarpan fiqur idi.

Heydər Əliyevin sovet hökumətinin ali rəhbərliyində işlədiyi beş il ərzində biz onun potensialına, hamını heyrətləndirən yaddaşına, təsərrüfatçılıq təfəkkürünə dönə-dönə müraciət edirdik. O, dövlətin, ölkə iqtisadiyyatının inkişafına kömək edirdi.

Deməliyəm ki, yeni dövr onun üçün faciəli illər idi... 1990-cı il 20 Yanvar hadisələri... Bu hadisələr Heydər Əliyevi çox həyəcanlandırdı. Şəxsiyyətinə və baxışlar sisteminə, təfəkkürünə, prinsiplərinə, məqsədlərinə təsir göstərən bu hadisələr onu Sovet İttifaqı rəhbərliyinin, ilk növbədə, Mixail Qorbaçovun ümumən yanaşı yaşayan iki yaxın millət - azərbaycanlılar və ermənilər arasında yaranmış problemi dinc yolla həll etməyi, münaqişəni sülh yolu ilə nizamlamağı bacarmamasına qarşı etiraz səsini ucaltmağa vadar etdi. Sovet rəhbərliyi, çox ehtimal ki, dövləti məsələləri həll etməyə qabil olmaması səbəbindən bu problemləri çözə bilmədi, bəlkə də bunu istəmədi, vəziyyəti idarə etməyi, qan tökülməsini dayandırmağı bacarmadı.

Heydər Əliyev bu hadisələrə görə çox əzab çəkirdi. Bunu dəfələrlə mənə demişdi. Bu əzablar 1991-ci ildə onun Sov.İKP sıralarından çıxması ilə nəticələndi. Bu qərar dövlət hakimiyyəti orqanlarının yürütdüyü siyasətə qarşı çox güclü etiraz kimi səsləndi.

Sonra Sovet İttifaqı süqut etdi, onun yerində Azərbaycan da daxil olmaqla müstəqil dövlətlər formalaşdı. Bütün bunlar siyasi və xüsusən təsərrüfat-iqtisadi baxımdan çox mürəkkəb və qarmaqarışıq şəraitdə baş verirdi. Sonra Elçibəy peyda oldu. Mən onunla görüşdüm və bir məqamı hələ də təəccüblə xatırlayıram ki, Elçibəy mənimlə tərcüməçi vasitəsilə danışmağa başladı. Halbuki mən ərzaq məsələlərinin həllində Azərbaycana kömək etməyə gəlmişdim... Elçibəy tərəfindən bu cür nümayişkaranə hərəkətin heç yeri deyildi. Azərbaycan xalqı onu həqiqi dövlət rəhbəri kimi qəbul etmədi və 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıtdı.

Heydər Əliyev özünün çox böyük potensiala malik olduğunu dərk etsə də, o vaxta qədər bəlkə də ölkə rəhbərliyinə qayıtmaq fikrində deyildi. Lakin o, Azərbaycan xalqının tələbi ilə hakimiyyətə qayıtdı!

Bundan sonra mənim Azərbaycanda görüşlərim çox olub. Heydər Əliyevin hakimiyyətə qayıtması sayəsində Azərbaycan sürətlə dirçəldi. Nəyin hesabına? Heydər Əliyevin müdrikliyi hesabına. Heydər Əliyev strateq idi, o düzgün başa düşürdü ki, iqtisadiyyatı inkişaf etdirmək, ərzaq təminatı üçün, xalqın yaşaması, tikinti, sənaye və bütün başqa sahələrin inkişafı üçün vəsait əldə etməyə imkan verəcək təsərrüfatı inkişaf etdirmək lazımdır.

Heydər Əliyevin daha bir keyfiyyəti haqqında danışmaq istəyirəm. Heydər Əliyev öz xalqının oğlu, millətin lideri idi. Azərbaycanı inkişaf etdirməklə, onun suverenliyini möhkəmləndirməklə məşğul olan Heydər Əliyev, eyni zamanda, Rusiya ilə, rus xalqı ilə əlaqələri heç vaxt, heç bir vəchlə itirmək istəmirdi. Xalqlarımız onilliklər boyu birgə olub. Biz faşizmə qarşı birlikdə vuruşmuşuq. Böyük Vətən müharibəsi illərində Bakı bütün hərbi texnikanın yanacaqla təmin olunması məsələlərinin həllinə kömək edib. Əbəs deyil ki, almanlar neft mədənlərini ələ keçirmək üçün Bakıya can atırdılar. Bu gün biz ortaq tariximizi yadda saxlamalıyıq. Əgər bu gün bir-birimizə - Azərbaycanın və Rusiyanın bir-birinə yaxın xalqlarına kömək göstərmək üçün bizim az da olsa imkanımız varsa, bunu etməliyik.

Bakıda Moskva Günləri keçirilməsi ilə əlaqədar Heydər Əliyev dəfələrlə bizim hakimiyyət orqanlarını Bakıya dəvət edirdi. Belə günlər həmişə böyük dostluq, qardaşlıq bayramlarına çevrilirdi. O özü şəxsən bu tədbirlərdə iştirak edir, həmin vaxt diqqət mərkəzində olan zallarda həmişə mənim yanımda əyləşirdi. Bu tədbirlərdə xalqlarımızın dostluğu davam edir, təsdiqlənirdi.

Bu gün sizinlə böyük dövlət xadimi haqqında danışırıq. Sovet İttifaqı dağılandan sonra yaranmış dövlətlərin rəhbərləri arasında öz xalqı üçün Heydər Əliyev qədər çox iş görmüş, yeni ölkənin inkişaf etməsi üçün əlindən gələni etmiş insanlar çox deyil, ola bilsin, daha birini, ən çoxu ikisini göstərmək olar, onların adlarını çəkməyəcəyəm. Amma mənim nəzərimdə və yaddaşımda Heydər Əliyev bir nömrəli rəhbərdir.

Biz Heydər Əliyev haqqında ölkənin rəhbəri kimi danışanda onu, ilk növbədə, şəxsiyyət kimi, güclü iradə sahibi, irəliyə baxan, hamıdan uzağı görən bir insan kimi qəbul edirik. Ona görə ki, belə də olmalıdır. Lider öz xalqını səslədiyi gələcəyi görməlidir. Lider mərd insan olmalıdır. Lakin daha bir məqamı qeyd etməsəm, Heydər Əliyevin obrazı yarımçıq olar...

Sizə bir əhvalat danışım... Zənnimcə, Azərbaycanda bunu hamı bilmir.

Heydər Əliyev gözəl ailə başçısı idi. Onun həyat yoldaşı Zərifə Əziz qızı Əliyeva gözəl qadın idi. Zərifə xanım həyatdan çox tez getdi və bu, Heydər Əliyevi çox sarsıtdı, çox kədərləndirdi. Zərifə Əziz qızı əvvəlcə Moskvada, Novodeviçye qəbiristanlığında dəfn edilmişdi. Heydər Əliyev hər həftə vaxt tapan kimi Novodeviçye qəbiristanlığına gəlir, sevimli ömür-gün yoldaşının məzarı yanında bir neçə dəqiqə əyləşirdi. Dövlət xadimi üçün, bizim nəzərimizdə emosiyalardan uzaq, yalnız dövlət haqqında, genişmiqyaslı dünya problemləri haqqında danışan dövlət xadimi üçün belə incə hisslər, ailəsinə bu cür münasibət tamamilə qeyri-adi təsir bağışlayır.

Sizə daha bir əhvalat danışım. Bunu yalnız Heydər Əliyevlə mən bilirdik. Bir də, yəqin ki, onun ailə üzvləri, uşaqları bilir. Biz Heydər Əliyevlə yaxın dost idik. Bir dəfə o, Moskva ilə əlaqələri inkişaf etdirmək üçün məni Azərbaycana, Bakıya dəvət etdi. Bakıya belə səfərlərimin birində ona qeyri-adi hədiyyə gətirdim. Mən onun xanımının büstünü tapmışdım. Heydər Əliyev bu büstün olmasını bilmirdi. Kifayət qədər böyük tunc büst Zərifə xanımın sağlığında hazırlanmışdı. Bu büstü mənimlə çox yaxın münasibətdə olan məşhur heykəltəraşın emalatxanasında tapmışdım. Heydər Əliyevin dəvəti ilə Bakıya gəldim. Məni müşayiət edən adamlardan xahiş etdim ki, bu büstü Heydər Əliyevlə görüşəcəyim yerin yaxınlığında bir otağa qoysunlar. Heydər Əliyev söhbətdən sonra soruşdu ki, indi və bu axşam planlarım necədir? O, həmin gün axşam da mənimlə söhbət etmək istəyirdi. Dedim ki, hökumət üzvləri ilə görüşüb bizim ticari-iqtisadi əlaqələrimizə aid məsələləri müzakirə etmək, sonra Mədəniyyət Nazirliyində olmaq istəyirəm. Heydər Əliyev dedi: "Yaxşı, onda axşama qədər". Mən ona müraciət etdim: "Heydər Əliyeviç, yox, sizə daha bir hədiyyə etmək istəyirəm". O cavab verdi: "Bu nəyə lazımdır, onsuz da biz yaxınıq, qarşılıqlı münasibətlərimiz yaxşıdır. Hədiyyə nəyə gərəkdir? Məncə, bizim münasibətlərimizdə bütün bunlar artıqdır". Mən dedim: "Heydər Əliyeviç, gəlin qonşu otağa keçək və düşünürəm ki, bu hədiyyəni nə üçün etmək istədiyimi başa düşərsiniz".

Biz qonşu otağa keçdik. Mən Zərifə Əziz qızının büstünün üstündəki örtüyü götürdüm və ... Heydər Əliyevin gözlərindən axan yaşı, sonra onun hönkürməsini gördüm.

Bilirsinizmi, o, öz məhəbbətini gördü, gördü ki, bu sevgi fiziki baxımdan ötüb keçsə də, belə gözəl maddi təcəssümünü tapıb... Bütün bunlar məni də çox həyəcanlandırdı. Mən anladım ki, qarşımdakı insan nəinki emosiyalara malikdir, o, öz həyat yoldaşını, övladlarını, xalqını həqiqi mənada sevən insandır. Ulu Tanrı Heydər Əliyevə təkcə müdriklik, güclü dövlət təfəkkürü bəxş etməyib. Bununla yanaşı, bir daha təkrar edirəm, o, insanların taleyinə görə bizim zəmanədə heç kimlə müqayisə edilə bilməyəcək dərəcədə narahatlıq hissi yaşayan, adı böyük hərflə yazılan İnsandır. Onun xatirəsi, təkcə onunla ünsiyyətdə olanların deyil, bizim xalqlarımızın qəlbində əbədi yaşamalıdır. Belə insanlar tarixdə iz qoymaya bilməzlər, onlar tarixdə öz yerini tutmalı və təkcə hansısa bir ölkənin ali rəhbərləri üçün deyil, bütün sadə adamlar üçün, həm Azərbaycanın, həm də əvvəllər Sovet İttifaqı adlanan böyük məkandakı bütün dövlətlərin sakinləri üçün nümunə olmalıdır.

## Dövlət Miqrasiya Xidmətinin daha bir bölməsi "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsində fəaliyyətə başlayıb



Dövlət Miqrasiya Xidməti (DMX) Dövlət Sərhəd Xidməti (DSX) və Dövlət Gömrük Komitəsi (DGK) ilə əməkdaşlıq şəraitində Azərbaycan Respublikasının quru sərhədlərindən buraxılış məntəqələrində də miqrasiya bölmələrinin fəaliyyətinin təşkilini davam etdirir. DMX-dən AZƏRTAC-a bildiriblər ki, dekabrın 6-da "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsində Dövlət Miqrasiya Xidməti və Dövlət Sərhəd Xidməti rəhbərliyinin iştirakı ilə yeni miqrasiya bölməsinin açılışı olub.

Tədbirdə DMX-nin rəisi Vüsal Hüseynov və DSX-nin rəisi, general-polkovnik Elçin Quliyev çıxış edərək respublikamızın quru dövlət sərhədindən buraxılış məntəqələrində də miqrasiya bölmələrinin yaradılmasının əhəmiyyətini qeyd edərək yeni bölmənin fəaliyyətinə uğurlar arzulayıblar.

Fəaliyyətə başlayan yeni miqrasiya bölməsi miqrasiya qanunvericiliyinin tələblərini pozmuş əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisinə daha rahat giriş-çıxış etmələrinin təmin olunması, onlara operativ və yerində xidmətlərin göstərilməsi, miqrasiya sahəsində göstərilən xidmətlərin regionlara səfər edən və orada yaşayan əcnəbilər, habelə vətəndaşlar üçün daha əlçatan olmasının təmin olunması, onların miqrasiya qanunvericiliyi ilə bağlı məlumatlandırılması və məmnunluğunun artırılmasına xidmət edəcək.

Yeni miqrasiya bölməsi ilk vaxtlarda ölkədə olduğu və ya yaşadığı dövrdə miqrasiya sahəsində inzibati xəta törətdiyinə görə Azərbaycan Respublikasından getməsi məhdudlaşdırılan əcnəbilərin inzibati məsuliyyətə cəlb edilməsi məsələsinin ölkədən çıxış vaxtı dövlət sərhədindən buraxılış məntəqəsində operativ və yerində həlli, miqrasiya qanunvericiliyi əleyhinə olan inzibati xəta törətdiyi üçün ölkəyə girişi məhdudlaşdırılan əcnəbilərin inzibati qərar icra edilməklə ölkəyə vaxt itkisi olmadan giriş etmələrinin təmin olunması, ölkə ərazisində olduğu yer üzrə qeydiyyatın aparılması və ölkədə yaşama icazələrinin alınması üçün sənədlərinin icraatda olmasını təsdiqləyən müvafiq arayışların verilməsi xidmətlərinin göstərilməsini təmin edəcək. Gələcəkdə göstərilən xidmətlərin sayının artırılması nəzərdə tutulur.

Yeni miqrasiya bölməsi 24 saatlıq iş rejimində fəaliyyət göstərəcək. Bölmə ölkəmizə təkcə "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsindən giriş-çıxış edən əcnəbilərə deyil, ətraf ərazilərdə yaşayan və səfər edən əcnəbilərə də müvafiq xidmətlərin göstərilməsini təmin edəcək. Qeyd edək ki, ilin sonunadək "Astara" (Azərbaycan-İran) dövlət sərhədindən buraxılış məntəqəsində də DMX-nin yeni xidmət bölməsinin fəaliyyətə başlaması nəzərdə tutulur. Xatırladaq ki, ötən aydan "Samur" dövlət sərhədindən buraxılış məntəqəsində DMX-nin yeni xidmət bölməsi fəaliyyət göstərir.

## Azərbaycan-İtaliya əməkdaşlığının genişləndirilməsi imkanları müzakirə olunub



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Milana səfəri çərçivəsində ATƏT Parlament Assambleyasında İtaliya nümayəndə heyətinin sədri Paolo Qrimoldi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-İtaliya strateji tərəfdaşlığı, iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları, iki ölkə arasında parlamentlərarası əlaqələr və ATƏT PA çərçivəsində əməkdaşlıq mövzuları müzakirə edilib. Tərəflər Azərbaycanın bölgədə rolu, ölkəmizin təşəbbüsü və iştirakı ilə reallaşdırılan qlobal əhəmiyyətli layihələr, xüsusilə də "Cənub Qaz Dəhlizi" layihəsi, Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesi, eləcə də qarşılıqlı maraq kəsb edən digər regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Emin Ağalarovun "Crocus City Hall"da konsertləri olacaq




Dekabrın 10-11-də Moskvadakı "Crocus City Hall"da Emin Ağalarovun solo-konsertləri olacaq. "Crocus City"nin İctimaiyyətlə Əlaqələr Departamentindən AZƏRTAC-a bildiriblər ki, müğənni hər il öz ad günündə konsertlər təşkil etmək ənənəsinə sadiq qalır. Bu il dekabrın 10-11-də artist "Crocus City Hall"da iki solo-şou təqdim edəcək.

Departamentdə qeyd ediblər: "Tamaşaçıları ən yaxşı və yeni hitlər, ən başlıcası, xüsusi abu-hava və canlı ifa gözləyir". Şounun ulduz qonaqları arasında "Serebro" qrupu, "A'Studio", Qriqori Leps, Maksim Fadeyev, Valeri Meladze, Valeriya və digər müğənnilər olacaq.

Müğənni rus dilində "Neba ne boyalis" adlı yeni albomundan mahnıları və musiqisevərlərin artıq çox bəyəndiyi populyar kompozisiyaları, həmçinin ingilis dilində yeni hitləri ifa edəcək. Departamentdə əlavə ediblər: "Əlbəttə ki, Emin öz qonaqlarına bir neçə maraqlı sürprizlər də hazırlayıb. Onlardan biri əfsanəvi Devid Fosterlə birgə çalışmış xüsusi qonaq - amerikalı pianoçu, təkrarolunmaz ifası ilə tanınan Lola Astanovanın konsertlərdə iştirakıdır".

## Müdafiə naziri ön xətt bölmələrinin döyüş hazırlığını yoxlayıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhəboyu zonada olan müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətt bölmələrinin döyüş hazırlığı ilə maraqlanıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Z.Həsənova ərazinin maketi üzərində əməliyyat şəraiti barədə məruzə edildikdən sonra bölmələrin döyüşə hazırlıq vəziyyəti yoxlanılıb.



Gecə və gündüz şəraitində döyüş mühafizəsinin daha keyfiyyətli təşkili və müdafiənin dayanıqlılığın artırılması məqsədilə yaradılan müşahidə məntəqəsindən düşmən mövqelərini izləyən general-polkovnik Z.Həsənov müasir texniki vasitələrdən istifadə edilməklə xidmətin daha səmərəli təşkili ilə bağlı tapşırıqlar verib. Ön xəttdə yaradılmış təlim-tədris sahələrindən birində döyüş tapşırıqları üzrə məşq edən şəxsi heyətlə görüşən müdafiə naziri, xidmətdə fərqlənən və döyüş hazırlığında yüksək nəticələr göstərən hərbi qulluqçuları mükafatlandırıb. Nazir bölmələrin maddi-texniki təminatı, silah-sursat və hərbi texnika ilə təchizatı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, həmçinin sosial məişət şəraiti ilə tanış olub.

Sonra Ağdam rayonu ərazisindəki kəndlərdən birində yerli sakinlərlə görüşən general-polkovnik Z.Həsənov yaşayış məntəqələrimizin müdafiəsinin təşkili və əhalinin təhlükəsizliyinin təmin edilməsi barədə söhbətlər aparıb.

## "Dağlıq Qarabağla bağlı sülhə nail olmaq üçün işi davam etdirmək barədə razılıq əldə edilib"



ATƏT Minsk qrupunun həmsədr ölkələri, Ermənistan və Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq üçün işləri davam etdirməyə razılaşıblar.

Trend-in məlumatına görə, bu barədə Milanda ATƏT Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində keçirilmiş görüşün yekunları ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin, Azərbaycan və Ermənistan nümayəndə heyətlərinin rəhbərlərinin birgə bəyanatında deyilir. Sənəddə deyilir ki, ATƏT Minsk qrupunun həmsədrləri (Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları və Fransa), Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri vəzifəsini icra edən Zorab Mnatsakanyan Dağlıq Qarabağ münaqişəsinin ədalətli və davamlı sülh yolu ilə həlli istiqamətində işlərin davam etdirilməsi barədə razılığa gəliblər. Bəyanatda qeyd edilir ki, həmsədr ölkələr Azərbaycan və Ermənistan liderlərinin sentyabrda Düşənbədə keçirilən MDB sammitinin kluarlarında söhbətindən sonra atəşkəs rejiminin pozulması hallarının azalmasını alqışlayırlar:

"Tərəflərə orada əldə olunmuş razılaşmaları davam etdirməyə və əhalini sülhə hazırlamaq üçün konkret tədbirlər görməyə çağırış edilib. Həmsədr ölkələr yaxın gələcəkdə Azərbaycan və Ermənistan liderləri səviyyəsində konkret nəticələrə və münaqişənin ədalətli və davamlı sülh yolu ilə həllinə istiqamətlənmiş intensiv dialoqun bərpa ediləcəyinə ümid etdiklərini bildiriblər".

Həmçinin qeyd edilir ki, Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri vəzifəsini icra edən Zorab Mnatsakanyan münaqişənin sülh yolu ilə həlli üzrə intensiv fəaliyyətə sadiq olduqlarını bir daha bəyan ediblər: "Onlar 2019-cu ilin əvvəlində ATƏT-in Minsk qrupunun həmsədrlərinin himayəsi altında bu məqsədlə və yüksək səviyyəli danışıqlara hazırlıq məqsədilə görüşməyə razılaşıblar".

## Roma Papası ilk dəfə Birləşmiş Ərəb Əmirliklərinə səfər edəcək



Roma Papası Fransisk Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) rəhbərinin dəvəti ilə 2019-cu ilin fevralında ilk dəfə bu ölkəyə səfər edəcək.

AZƏRTAC "The National" nəşrinə istinadla xəbər verir ki, bu barədə Əbu-Dabinin vəliəhd şahzadəsi özünün "Twitter" mikrobloqunda yazıb. O qeyd edib ki, BƏƏ-də sülhün, dözümlülüyün və tolerantlığın simvolu olan Papa Fransiskin tarixi səfərini səbirsizliklə gözləyirlər. Şahzadənin fikrincə, bu səfər xalqların sülh şəraitində dinc yanaşı yaşaması səyləri üzrə dialoqa şərait yaradacaq.

Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Məktum da özünün "Twitter" hesabındakı səhifəsində Roma Katolik Kilsəsi başçısının ölkəyə səfəri xəbərini məmnunluqla qarşıladığını yazıb. O qeyd edib ki, bu səfər ikitərəfli əlaqələri və qarşılıqlı anlaşmanı möhkəmlədəcək, konfessiyalararası dialoqu gücləndirəcək, xalqlar arasında sülhün dəstəklənməsinə və möhkəmlənməsinə kömək edəcək.

# "Mən fəxr edirəm ki, azərbaycanlıyam"

## *YAP Yasamal rayon təşkilatında AXC-nin 100 illik yubileyinə həsr olunmuş rəsm sərgisi keçirilib*



***Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatında YAP Yasamal rayon təşkilatının və Azərbaycan Rəssamlar İttifaqının dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" mövzusunda sərgi-tədbir keçirilib.***

Layihə rəhbəri Elnurə İsgəndərovanın və sərgi-tədbirin təşkilatçısı Aygün İsgəndərovanın təşəbbüsü ilə keçirilən sərgidə sənətin bütün növləri üzrə 100-dən çox rəssamın 150-dən çox işi qatılıb.

YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov, YAP Yasamal rayon qadınlar şurasının sədri Tamilla Şahbazova, Azərbaycan Rəssamlar İttifaqının üzvləri, rayonun ictimai xadimləri sərgidə nümayiş etdirilən rəsm əsərləri ilə tanış olublar.

Layihə rəhbəri Elnurə İsgəndərova belə bir sərginin keçirilməsi üçün dəstək göstərən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədova öz minnətdarlığını çatdırıb.

Sərgi ilə bağlı fikirlərini çatdıran YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov qeyd edib ki, bu il Azərbaycanda bir çox yüzilliklər keçirilir və AXC-nin 100-cü ildönümü bu tədbirlərin tərkib hissəsidir. O, qeyd edib ki, bu kimi tədbirlər, davamlı olaraq, həyata keçirilir və qarşıda da bənzər tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Çıxış edən YAP Yasamal rayon təşkilatının qadınlar şurasının sədri Tamilla Şahbazova da, öz növbəsində, sərgi iştirakçılarını və qonaqları salamalayaraq, belə tədbirlərin keçirilməsini alqışladığını bildirib və partiyanın rayon təşkilatının sədri Tağı Əhmədova bu şəraiti yaratmasına görə təşəkkürlərini çatdırıb.

Sabir adına kitabxananın müdiri Gülşən Abbasova, tanınmış rəssam Asif Azərelli və digər qonaqlar da sərgi barədə fikirlərini çatdıraraq, gənc və yeniyetmə rəssamlara işlərində müvəffəqiyyətlər arzulayıblar.

Sərgidə gənc və yeniyetmə rəssamlara diplomlar təqdim olunub.

***Rövşən RƏSULOV***

# "Lazerev klubu"nda terrorçuluğu əsas vasitə kimi seçən qüvvələr cəmləşib"



"Ümumiyyətlə "Lazerev klubu"nda yer alanlar ilk növbədə ermənipərəst siyasi dairələrin təmsilçiləridir. Bura həm Rusiyada erməni maraqlarına xidmət edən və Rusiyanın erməni lobbisi, diasporunun əlində alət olan "siyasətçilər", eyni zamanda Ermənistanda şovinist mövqedən çıxış edən və öz fəaliyyətlərində terrorçuluğu əsas vasitə kimi seçən qüvvələr cəmləşib". Bunu SİA-ya açıqlamasında millət vəkili Elman Nəsirov deyib.

Onun sözlərinə görə, həmin qüvvələr ilk növbədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi nəticəsində ifrat radikal mövqeləri ilə seçilirlər: "Heç bir halda münaqişənin sülh yolu ilə beynəlxalq hüquq çərçivəsində həlli ideyasını deyil, onlar daha çox qeyri-konstruktiv mövqeləri ilə gündəmə gəliblər. Hesab edirəm ki, burada Rusiya Dövlət Dumasının Komitə sədrinin müavini Konstantin Zatulin kimi hər zaman ermənipərəst qüvvələrin əlində alətə çevrilən bir şəxsin də yer alması təsadüfi deyildir. Bu o Zatulindir ki, hakimiyyətdən devrilmiş Serj Sarkisyanı özünün ən yaxın dostu hesab edirdi və fəxrlə də deyirdi ki, ondan qızıl hədiyyələr alıb. Hətta Zatulin Serj Sarkisyanı dünya siyasətində çox güclü beynəlxalq siyasi qrosmestr hesab edirdi. İndi isə onun beynəlxalq səviyyəli qrosmestrhesab etdiyi Sarkisyan devrilib. Zatulin indi yenə də yeni sahiblər, yiyələr axtarışındadır. Yəqin ki az keçməz "Lazerev klubu"nda çıxışları ilə o Paşinyanın da diqqətinin cəlb olunmasına çalışacaq. Bununla da o yenə də özünün ənənəvi ianələr, rüşvət və korrupsiyaları hesabına yaşam tərzini davam etdirməyə çalışacaq. Bu hər kəsə bəlli faktlardır. Ümumiyyətlə onun deputat seçilməsində erməni lobbisi və diasporasının Soçidə nə qədər əzmkarlıq göstərdiyi məlum faktlardır. Ona görə də belə bir klubun toplantısının keçirilməsi ilk növbədə münaqişənin həlli imkanlarını buxovlayan, çətinləşdirən və məhdudlaşdıran addımdır".

***Ceyhun Rasimoğlu***

# "Həyata keçirilən islahatlar insanların daha yaxşı yaşaması üçündür"



"Bu günlərdə Milli Məclisin növbəti plenar iclasında "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. Sənədə nəzər yetirdikdə aydın olur ki, növbəti ilin dövlət büdcəsi də sosialyönümlü olacaq. Belə ki, büdcə xərclərinin 32 faizini sosialyönümlü xərclər təşkil edir. Növbəti ildə əhalinin sağlamlığının qorunması da diqqət mərkəzində olacaq. Gələn il səhiyyə sahəsinə ayrılan xərclər bu ilin müvafiq xərclərindən 309 milyon manat, yəni, 32 faiz çoxdur. Bununla yanaşı, icbari tibbi sığorta üçün 223 milyon manat vəsaitin ayrılması planlaşdırılır. Təhsil xərcləri isə 11 faiz artacaq və 2 milyard 275 milyon manata çatacaq." Bu fikirləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, ehtiyac meyarının, əhalinin sosial demoqrafik qrupları üzrə yaşayış minimum məbləğinin, qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclərin artırılması ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasətin bariz nümunələridir: "2019-cu ildə ehtiyac meyarının həddinin 13 manat artırılaraq 143 manata, əhalinin sosial demoqrafik qrupları üzrə yaşayış minimumu məbləğinin 173 manatdan 180 manata çatdırılması planlaşdırılır. Həmçinin qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər üçün 262 milyon manat vəsait ayrılacaq. Bu rəqəm 2018-ci illə müqayisədə 7 faiz çoxdur. Dövlət büdcəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinə birdəfəlik ödənişlərin verilməsinin davam etdirilməsi üçün 50 milyon manat vəsaitin ayrılması da nəzərdə tutulur. Rəqəmlərdən də göründüyü kimi, dövlət siyasətinin mərkəzində insan amili dayanır. Görülən işlər, həyata keçirilən islahatlar insanların daha yaxşı yaşaması, onların dövlətin diqqət və qayğısı ilə əhatə olunması üçündür".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, gələn ilin büdcəsində ölkə vətəndaşlarının güzəştli şərtlərlə mənzillərlə təmin edilməsi, həmçinin hərbi qulluqçulara mənzillərin verilməsi, habelə kirayə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara ödənilən pul kompensasiyası ilə bağlı da mühüm məqamlar yer alıb: "Belə ki, bu istiqamətdəki xərclərə 212 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bütün bunlar bir daha onu göstərir ki, ölkəmizdə uğurlu sosial siyasət həyata keçirilir və bu tendensiya ildən-ilə daha yüksək göstəricilərlə davam etdirilir".

# "Nüfuzlu beynəlxalq təşkilatlar da Azərbaycanın terrorçuluqla mübarizədə apardığı işlərə böyük önəm verir"



Azərbaycan bütün beynəlxalq təşkilatlar qarşısında öhdəliyini yerinə yetirən qabaqcıl ölkələr sırasında yer alıb. Xüsusilə terrorçuluğa qarşı mübarizədə daim öz fəallığı ilə seçilib və bu, bir faktdır ki, Azərbaycanın özü terrordan əziyyət çəkən ölkədir və beynəlxalq terrorizmə qarşı mübarizədə bütün əməkdaşlıqlarda yer alıb, terrorla mübarizə təşkilatları ilə həmrəyliyi, əməkdaşlığını artıq uzun illərdir ki, uğurla davam etdirir. Bu fikirləri Trend-ə "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Avropa Şurasının MONEYVAL Komitəsinin ölkəmizin terrorçuluqla mübarizədə əldə etdiyi uğurlarını sübut edən qiymətləndirməsinə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, əbəs deyil ki, Avropa Şurasının MONEYVAL Komitəsi Azərbaycanın bu sahədə gördüyü işləri yüksək qiymətləndirib və apardığı mübarizənin müsbət nəticələr əldə etdiyini təsdiqləyib: "Bu faktın özü həm də belə deməyə kifayət qədər zəmin yaradır ki, artıq aparıcı dünya dövlətləri ilə yanaşı, nüfuzlu beynəlxalq təşkilatlar da Azərbaycanın istər terrorçuluqla mübarizədə, istərsə də digər məsələlərdə apardığı işlərə böyük dəyər və önəm verməkdədirlər. Eyni zamanda, daha bir faktı xatırlatmaq istərdim ki, bu günlərdə Dünya İqtisadiyyatı İnstitutunun "Qlobal Terrorçuluq İndeksi" hesabatında Azərbaycan reytinq cədvəlində 98-ci yeri tutmaqla, regionda lider ölkə kimi qeydə alınıb. Bu reytinq cədvəlində terror təhlükəsi olan ölkələr ilk sıralarda, terror təhlükəsi olmayan ölkələr isə daha aşağı sıralarda yer alıblar".

Ekspert digər bir mühüm məsələyə də toxunaraq bildirib ki, Azərbaycan terrorla mübarizə aparan ölkə olmaqla yanaşı, həm də sabitlik və təhlükəsizlik məkanıdır: "XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - "Bakutel 2018" ilə tanışlığı zamanı Prezident İlham Əliyev "Rossiya 24" telekanalına müsahibəsində Azərbaycanın turizm potensialından bəhs edərkən, ölkəmizi dünyanın ən təhlükəsiz yerlərindən biri olduğunu xüsusilə vurğuladı. Məhz belə mühüm faktorlardan bu nəticəyə gəlmək olar ki, Azərbaycan istər terrorla mübarizədə, istərsə də təhlükəsizliyin təmin olunmasında öz liderlik mövqeyini qoruyub saxlayır".

# Daha bir erməni hərbçi öldü



Ermənistanın Sisian rayonunda qar uçqununa düşən hərbçinin cəsədi tapılıb. SİA Ermənistan KİV-nə istinadən xəbər verir ki, ölən hərbçi 1995-ci il təvəllüdlü müqaviləli əsgər Karamyan Ayk Samveloviçdir (1995-c il). Onunla birlikdə qar uçqununa düşən digər hərbi qulluqçuların xəstəxanaya yerləşdikləri və vəziyyətlərinin normal olduğu xəbər verilir.

# "Konstantin Zatulin erməni lobbisinin sifarişini yerinə yetirib"

*Məlum olduğu kimi, Yerevanda keçirilmiş Rusiya-Ermənistan "Lazarev klubu"nun iclasında separatçılığı dəstəkləyən, terrora hamilik edən fikirlər səsləndirilib. İclasda Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının 7-ci çağırışında MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə komitə sədrinin birinci müavini vəzifəsini icra edən Konstantin Zatulin, MDB ölkələri institutunun direktor müavini Vladimir Yevseyev və digər şəxslər Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı açıq hücum xarakteri daşıyan fikirlər səsləndirib, ermənipərəst mövqelərini ortaya qoyublar. Söhbət etdiyimiz müsahiblərimiz qondarma iclasda səslənən fikirlərin cəfəngiyyat olduğunu və MDB çərçivəsində əməkdaşlıq ruhuna zərbə vurduğunu bildirdilər.*

## Millət vəkili Eldəniz Səlimov: "Zatulinin Ermənistana və ermənilərə qulbeçəlik etməsi artıq kiməsəyə sirr deyil"



- İşğalçı dövlətin paytaxtı Yerevanda özünü ictimai diplomatiyanın "yeni formatı" qismində təqdim edən Rusiya-Ermənistan "Lazarev klubu"nun iclası Azərbaycana, o cümlədən, 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə həllinə qarşı yönəlmiş növbəti təxribatçılıq əməlidir. Bunun başqa adı və izahı da yoxdur, bu, təxribatdan savayı bir şey deyil. Çünki bu formatın təşəbbüskarlarına, eləcə də, klubun ilk iclasına qatılan iştirakçılarına ani baxmaq yetər ki, məsələnin əsl mahiyyəti dərhal üzə çıxmış və aydınlaşmış olsun. Həmçinin, Azərbaycan "Rus İcması"nın bəyanatında da vurğulandığı kimi, bu klubun əsas təşəbbüskarlarından və təşkilatçılarından biri, hazırda Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının yeddinci çağırışında MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə komitə sədrinin birinci müavini vəzifəsini tutan Konstantin Zatulinin, faktiki olaraq, Ermənistanın rəsmi "direyi" və Yerevanın Rusiya Dumasının komitəsindəki nümayəndəsi olmasına çoxdan öyrəşmişik. Zatulinin Ermənistana və ermənilərə qulbeçəlik etməsi kiməsə sirr deyil. Bu adam nə öz rəsmi statususuna, nə də təmsilçisi olduğu ölkənin yeritdiyi rəsmi siyasətinə hörmət qoyur. Zatulin və onun kimilərinin məqsədləri və niyyətləri, əslində, bəllidir. Bunun üzərində o qədər də baş sındırmağına, boş və mənasız yerə vaxt sərf etməyinə dəyməz. Zatulinlər indiyə kimi olub, var və bundan sonra da olacaqlar. Burada kiməsə sirr və yeni kəşf kimi görünəcək bir məsələ də yoxdur. Belələri öz şəxsiyyətlərini, şərəf və ləyaqətlərini öz şəxsi, cılız maraqlarına görə hər şeydən üstün tutan üzdəniraqlardır, onlar üçün dövlətçilik, milli maraqlar deyilən anlayış da yoxdur. Onları varsa da, yoxsa da şəxsi mənfət, maddi qazanc və pul düşündürür, kim çox pul versə, onların çaldıqlarına oynayırlar. Amma məsələnin digər və əsas tərəfi odur ki, Zatulin böyük bir vəzifəni tutur, Rusiya kimi dövlətin ali qanunverici orqanının, belə demək mümkünsə, rəhbərliyində təmsil olunur, nüfuzlu və vacib bir komitənin sədr müavinidir. Ancaq bu adam, bu zat nə statusuna, nə də təmsilçisi olduğu dövlətə, onun rəsmi siyasətinə və ali qanunverici orqanına hörmət qoyur. O, öz çirkin, təxribatçı əməlləri ilə həm öz ölkəsinə, onun nüfuzuna xələl gətirir, həm də Rusiyanın ən yaxın və cənub qonşularından, az qala strateji müttəfiqlərindən biri olan Azərbaycanla münasibətlərinə zərbə vurur. Onun hərəkətləri, addımları Rusiya-Azərbaycan münasibətlərinə də kölgə salır. Bu gün Rusiyayla Azərbaycan arasında ideal münasibətlər mövcuddur, təkcə son 10-11 ayda iki ölkənin prezidentləri ən azı 6 dəfə bir araya gəliblər. Həmçinin, Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə məşğul olan ATƏT-in Minsk Qrupunun 3 həmsədr dövlətindən biridir. İndi belə olan təqdirdə, necə ola bilər ki, Rusiya münaqişənin həlli ilə bağlı danışıqlar prosesində vasitəçilik etsin, ancaq onun rəsmi şəxslərindən biri öz ölkəsinin mandatına və missiyasına zərbə vuran hərəkətlərə yol versin?!. Hesab edirəm ki, Rusiya rəhbərliyi, konkret olaraq, Rusiya Dövlət Duması artıq Zatulin və onun kimilər barədə ciddi qərar verməli, sərt ölçülər götürməlidir. Götürməlidir ki, başqalarına, gələcəkdə bu niyyətə düşmək istəyində olanlara da ibrət dərsi olsun. İnanıram ki, bu, belə də olacaq, Zatulinlərə öz dövlətləri, rəhbərlikləri səviyyəsində sərt cavab veriləcək və onların təxribatçılıq əməllərinin qarşısı alınacaq. ATƏT-in Minsk Qrupunun həmsədri və ən böyük qonşumuz, çox yaxın tərəfdaşımız kimi də bizim Rusiyadan gözləntimiz budur. Azərbaycan Xarici İşlər Nazirliyi səviyyəsində məsələyə münasibət bildirilməsi və sərt reaksiya verilməsi möhbət haldır. Çox yəqin ki, oradan səslənən mesajlardan nəticə çıxarılacaq.

## "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: "Zatulinin əsas maliyyə qaynağı keçmiş Ermənistan rəhbərliyi və erməni lobbisidir"

- "Lazarev klubu"nun əsas təşəbbüskarlarından və təşkilatçılarından biri hazırda Rusiya Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə komitə sədrinin birinci müavini vəzifəsini tutan Konstantin Zatulindir. O, hər zaman anti-Azərbaycan mövqeyi ilə seçilib. Hər dəfə fürsətdən istifadə edərək Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində ermənilərin "haqlı" olduğunu söyləməklə işğal faktına haqq qazandırır, rəsmi Moskvanın məsələnin həll ilə bağlı rəsmi mövqeyinə tamamilə zidd bəyanatlar verir. Zatulin və onun "Lazarev klubu"nda təmsil olunan Yevseyev və Kazimirov kimi "siyasətçi"lər vaxtilə Robert Koçaryan və Serj Sarkisyan hərbi xuntası ilə sıx əlaqəli idilər. Başda Zatulin olmaqla, bu şəxslərin əsas maliyyə qaynağı keçmiş Ermənistan rəhbərliyi və erməni lobbisidir. Azərbaycan Xarici İşlər Nazirliyinin məlum məsələ ilə bağlı bəyanatında da, vurğulandığı kimi, Rusiya-Ermənistan "Lazarev klubu"nun iclasında səsləndirilən fikirlər Azərbaycan-RF münasibətlərinə xələl gətirmək məqsədi güdür. "Lazerev klubu"nun ümumi tonu, Rusiya Federasiyası da daxil olmaqla, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin irəli aparılması səyləri ilə ziddiyyət təşkil edir. Son zamanlar Ermənistanda Koçaryan-Sarkisyan cinayətkar rejiminin sıradan çıxarılması bu şəxslərin də maliyyə qaynaqlarının zəifləməsinə səbəb olub. İndi onlar Ermənistanda seçkilər ərəfəsində bu cür müzakirələr təşkil edərək, Azərbaycanı hədəfə alan açıqlamalar verməklə, Ermənistanın yeni hakimiyyətinə də "canla-başla qulluq edəcəklər"ni göstərməyə çalışırlar. Azərbaycanla Rusiya arasında münasibətlərin yüksələn xətlə inkişafı Ermənistanda, işğal altındakı ərazilərimizdə fəaliyyət göstərən separatçı rejimdə və Rusiyada onların maraqlarını müdafiə edən bəzi dairələrdə çox ciddi narahatlıq yaradır. Bu səbəbdən, hər vasitə ilə iki ölkə arasındakı mövcud əlaqələri zədələməyə can atırlar. Əslində isə, bu gün Rusiyanın hakimiyyət dairələrinin özündə belə adı çəkilən klubda təmsil olunan siyasətçilərin heç birinin tutarlı çəkisi və təsir imkanları mövcud deyil. Ona görə də, "Lazarev klubu"nun bəyanatları nə qədər anti-Azərbaycan mahiyyəti daşısa da, onun Rusiya ilə olan münasibətlərə təsir etməyəcəyi qənaətindəyəm.



**GÜLYANƏ**

## Müdafiə Nazirliyi: "Bal-E" raket sistemlərinin alınması məqsədilə tərəfimizdən danışıqlar aparılmayıb



"Bal-E" raket sistemlərinin alınması məqsədilə tərəfimizdən danışıqlar aparılmayıb və kompleksin əldə edilməsi niyyətimiz də olmayıb. Bu barədə son günlər müxtəlif kütləvi informasiya vasitələrində "Bal-E" raket sistemlərinin alınmasında Azərbaycanın maraqlı olduğu, lakin Rusiyanın kompleksin ölkəmizə satışını məqsədəuyğun saymaması barədə yayılan məlumatlarla əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib. "Eyni zamanda, onu da qeyd edək ki, Azərbaycanın Xəzər dənizi sektorunda təhlükəsizliyin təmin olunması məqsədilə müxtəlif ölkələrin müvafiq qabaqcıl müdafiə sistemlərindən və raket komplekslərindən istifadə edilir", - deyə məlumatda qeyd olunub.

## Erməni siyasətçi: Paşinyan Ermənistan-Rusiya münasibətlərini məqsədyönlü şəkildə pozur



Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan jurnalistlərə müsahibəsində bildirib ki, ölkənin baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyan Ermənistan-Rusiya münasibətlərini məqsədyönlü və ardıcıl şəkildə pozur və Dağlıq Qarabağ münaqişəsini həll etmək gücünə malik deyil.

AZƏRTAC erməni KİV-lərə istinadla xəbər verir ki, siyasətçinin sözlərinə görə, Paşinyanın bir yox, iki "Axilles dabanı" var. Bunlar, xarici siyasət və Qarabağ problemidir. Aşotyan əlavə edib ki, onun partiyası iqtidarda olarkən Rusiya-Ermənistan əlaqələrinin möhkəmlənməsi istiqamətində çox işlər görüb, ölkəyə rus sahibkarların sərmayələrini cəlb edib, Moskva ilə bir sıra beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edib. Lakin Paşinyan təqsirsizlik prezumpsiyasını pozaraq Rusiyanın Ermənistandakı törəmə şirkətlərini, xüsusən "Qazprom Armeniya" və "YKJD" firmalarını təqib edtirir, ölkəyə xarici sərmayələrin cəlb olunmasının qarşısını alır. Siyasətçi qeyd edib ki, Ermənistan rəhbərliyinin bu cür davranışı rusiyalı tərəfdaşların onu dezinformasiya yaymaqda ittiham etməsinə səbəb olur və iki ölkə arasında əməkdaşlığa zərər vurur. Dağlıq Qarabağ məsələsinə gəldikdə isə, Aşotyan vurğulayıb ki, Paşinyan vəziyyətə nəzarət edə bilmir və münaqişənin həllinə dair dəqiq mövqeyə malik deyil. Erməni siyasətçi əmindir ki, yeni hökumət danışıqlar prosesinə zərbə vurub.

## "Paşinyan parlamenti ləğv etmək niyyətindədir"



"Ermənistanda seçki ərəfəsində baş verənlər Paşinyanın planları əsasında həyata keçir. Əks halda, Paşinyan vaxtından əvvəl seçki keçirmək qərarına gəlməzdi". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Rüstəm Məmmədov deyib. O bildirib ki, Paşinyan üçün hazırda əsas məsələ nəyin bahasına olursa, olsun seçkilərdə qalib gəlməkdir: "Paşinyan ancaq seçkilərdə 1 faiz səslə də olsa rəqiblərini üstələmək haqqında düşünür. Onun niyyəti seçildikdən sonra hazırkı parlamenti ləğv edib yenidən yaratmaqdır". Politoloq söyləyib ki, Ermənistanda fikir ayrılığının çox olması bu gün bu ölkədə vəziyyəti daha da kritikləşdirib. Seçkilərdən sonrakı proseslərə gəlincə R. Məmmədovun fikrincə, seçkilərdən soran Paşinyanın siyasətində hər hansı dəyişikliyin olacağı ehtimalı çox azdır. Dağlıq Qarabağ münaqişəsinin həllinə toxunan politoloq qeyd edib ki, bu məsələnin həlli Rusiyadan asılı olacaq.

## Azərbaycan və Türkiyə yük vaqonlarının birgə istehsalına başlayacaq

Azərbaycan və Türkiyə yük vaqonlarının birgə istehsalına başlayacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan Türkiyə KİV-lərinə müsahibəsində deyib.

O bildirib ki, Azərbaycan və Türkiyə Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə hərəkət edəcək yük vaqonlarının istehsalını birlikdə həyata keçirəcək. Bununla əlaqədar Azərbaycanda zavod yaradılacaq. Nazirin sözlərinə görə birgə müəssisənin layihələşdirilməsi ilə bağlı işlər yekunlaşmaq üzrədir.

# Prezident İlham Əliyevdən milli-mənəvi dəyərlərin və milli varlığın qorunub saxlanılmasına növbəti dəyərli töhfə

*Prezident Fərmanı Azərbaycanın dövlət dilinin saflığının qorunması və işlək mexanizmlərinin təkmilləşdirilməsi baxımından qarşıya daha məsuliyyətli vəzifələr qoyur*

***Dünyanın ən qədim və zəngin dillərindən biri olan Azərbaycan dili, xalqımızın ana dili olmaqla bərabər, həm də ölkəmizin dövlət dilidir.***



*İsa HƏBİBBƏYLİ, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik*

Eyni zamanda, Azərbaycan dili respublikamızda yaşayan bütün xalqların və etnosların, azsaylı xalqların da vahid ünsiyyət dili funksiyasını yerinə yetirir. Azərbaycan dili Azərbaycan xalqının ən böyük milli sərvətidir, zəngin mənəvi xəzinəsidir. Böyük demokrat ədib Cəlil Məmmədquluzadənin sözləri xalqın milli varlığının qorunub-saxlanılmasında dil faktorunun rolunun və əhəmiyyətinin zəruriliyini diqqət mərkəzinə çəkir: "Dünyada hər bir kəs üçün sözdən (oxu: dildən - İ.H.) böyük yadigar yoxdur. Zira ki, malmülk tələf olub gedir, amma söz qalır".

Xalqın dilinin inkişaf etdirilməsinə, zənginləşdirilməsinə göstərilən diqqət və qayğı onun milli-mənəvi varlığının qorunub-saxlanılması və daha da möhkəmləndirilməsi deməkdir. Bu mənada, son yarım əsrdə Azərbaycanda, ardıcıl olaraq, dövlət dili siyasətinin uğurla həyata keçirilməsi xalqın təkamülündə dil faktoruna verilən böyük önəmi qabarıq şəkildə nəzərə çarpdırır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci mərhələsində, konkret olaraq, 1978-ci ildə, sərt sovet ideologiyası şəraitində Azərbaycan dilinin ölkəmizin konstitusiyasına dövlət dili kimi həkk etdirməsi zamanına görə əsl qəhrəmanlıq və uzaqgörənlik nümunəsidir. Həmin dövrdə Azərbaycanda ana dili - dövlət dili uğrunda mübarizə milli istiqlal mübarizəsinin ana xəttini təşkil etmişdir.

Ulu Öndərin Azərbaycan Respublikasına rəhbərliyinin müstəqillik dövrünü əhatə edən ikinci mərhələsində "Dövlət dilinin tətbiqi işinin təkmilləşməsi haqqında" (18 iyun 2001-ci il), "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında"kı (9 avqust 2001-ci il) sərəncamları yeni tarixi mərhələdə dövlət dili siyasətinin miqyasını daha da genişləndirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 aprel 2013-cü ildə imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" dövlət dilinin birinci inkişafının proqramı kimi mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, Prezident İlham Əliyevin sərəncamları ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı və xarici ölkə ədəbiyyatı nümayəndələrinin böyük tirajla nəşr edilib yayılması mühüm tarixi hadisədir.

"Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" hüquqi sənəd (13 noyabr 2013-cü il) dilçi alimlərin fəaliyyətinin koordinasiya olunmasına və səylərin birləşdirilməsinə şərait yaratmışdır. "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" verilmiş Sərəncamı (17 iyul 2018-ci il) isə dövlət dilimizin xaricdəki həmvətənlərimizin və ölkəmizə maraq göstərən xarici vətəndaşların onlayn vasitələrlə öyrənmələri üçün lazımi tədbirlərin həyata keçirilməsinə meydan açmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında"kı 1 noyabr 2018-ci il tarixli Fərmanı müstəqil ölkəmizdə dövlət dili istiqamətində, ardıcıl olaraq aparılan məqsədyönlü siyasətin məntiqi davamı, həyata keçirilmiş tədbirlərin yeni bir səhifəsidir. Dövlət dilinin daha da inkişaf etdirilməsi sahəsində həyata keçirilən ardıcıl siyasət qloballaşma şəraitində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin və milli varlığının qorunub- saxlanılmasına və daha da möhkəmləndirilməsinə dövlət səviyyəsində göstərilən qayğının parlaq bir nümunəsidir.

Bu, ilk növbədə, özünəməxsus davamlı ənənələrə, möhkəm və dayanıqlı prinsiplərə, zəngin söz ehtiyatına malik olan Azərbaycan dilinin yad və kənar təsirlərdən qorunmasının təmin edilməsinə xidmət edən dövlət Fərmanıdır. Çünki Sovetlər İttifaqı zamanı həmin İttifaq çərçivəsində nisbətən qapalı mühitdə olan Azərbaycan dili xalqımız müstəqillik qazandıqdan sonra ölkəmizin dünyaya açılması ilə əlaqədar olaraq, sağdan-soldan kənar təsirlərlə üzləşməli olmuşdur.

Texniki tərəqqinin inkişafından doğan beynəlxalq miqyasda qəbul edilən yeni terminlərlə yanaşı, heç bir xüsusi ehtiyac olmadan dilimizə nüfuz edən yad kəlmələr leksikamızda özünə yol tapmaqdadır. Pis cəhət ondan ibarətdir ki, nəinki müasir gənclik, eyni zamanda, bir çox hallarda təcrübəli ziyalılar, yaradıcı qüvvələr, hökumətdə təmsil olunan bəzi məmurlar və kütləvi informasiya vasitələri kənar təsirlər vasitəsilə dil mühitimizə daxil olan həmin sözlərə həssas münasibət göstərərək, onları gündəlik danışıq dilinə daxil edirlər. Beləliklə, efirdən - ekrandan və sosial mühitdən Azərbaycan dilinin leksik tərkibinə dilimizin ahəng qanununa, qrammatik qaydalarına uyğun gəlməyən kənar sözlər daxil olmaq üçün münasib imkan qazanır. Təəssüf ki, belə lüzumsuz kəlmələr bəzən dərsliklərə də yol tapır, çox asanlıqla məktəb yaşlı uşaqların yaddaşında özünə yer sala bilir. Etiraf etmək lazımdır ki, hətta bəzi müəlliflər öz əsərlərində alınma sözlərdən, mürəkkəb terminologiyadan zəruri olmadan istifadə etməyi savadlılıq əlaməti hesab edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında"kı 1 noyabr 2018-ci il tarixli Fərmanında, haqlı olaraq "əcnəbi söz və ifadələrin yersiz işlədilməsinin az qala adi hala çevrilməsi", xüsusi olaraq diqqətə çatdırılmışdır. Halbuki Azərbaycan dilinin zənginlikləri həmin alınma sözlərin və ifadələrin dilimizdəki münasib qarşılığı olan leksik vahidlərlə işlədilməsinə tamamilə imkan verir. Belə olduğu halda, yad və kənar sözlərə kütləvi marağın güclənməsi və genişlənməsi Azərbaycan dilinin saflığının qorunması üçün həyəcan təbili çalınmasına böyük zərurət yaradır.

Prezident İlham Əliyevin 9 noyabr 2015-ci ildə Milli Elmlər Akademiyasının 70 ilik yubileyindəki dərin məzmunlu nitqində həmin həyəcan siqnalı çox qabarıq şəkildə ifadə olunmuşdur: "Bu gün bəzi hallarda, göründə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda, bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu, məni, doğrudan da, narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyacı yoxdur. ...İmkan verilməməlidir ki, ana dilimizə yad kəlmələr daxil olsun. Bəzi ictimai xadimlərin, hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə edilir. Buna ehtiyac yoxdur".

Dövlət başçısını dövlət dilinə münasibətdə narahat edən məsələlərin həlli, ilk növbədə, Azərbaycan elm və təhsil işçilərinin, mədəniyyət xadimlərinin və ümumiyyətlə, ziyalı mühitinin, bütün yaradıcı qüvvələrin, mətbuatda, radio və televiziyalarda çalışanların əsas vəzifəsinə çevrilməlidir. Doğrudur, Cənab Prezidentin AMEA-nın 70 illik yubileyindəki nitqindən sonra ölkə miqyasında bu istiqamətdə bir çox işlər görülmüşdür. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin nəzdində Dil Komissiyası yaradılmış və görkəmli dilçi və ədəbiyyatçı alimlər bu komissiyada təmsil olunmuşlar. AMEA Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimli AMEA Rəyasət Heyətində "Azərbaycan dilinin saflığının qorunmasının aktual məsələləri" mövzusunda məruzə ilə çıxış etmiş, mövzu ətrafında geniş müzakirələr aparılmışdır. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun bazasında akademiyanın bütün bölmələrini əhatə edən gənc alimlər və mütəxəssislər, doktorant və dissertantlar arasında "Dilimiz - milli varlığımızdır" mövzusunda müsabiqə keçirilmiş, bədii qiraət, imla, nitq mədəniyyəti üzrə ədəbi dil qaydalarına daha çox riayət edənlər mükafatlandırılmışdır.

Bundan başqa, Milli Elmlər Akademiyasında yaradılmış Orfoqrafiya Komissiyası Azərbaycan dilinin müstəqillik dövründə ilk orfoqrafiya lüğətini hazırlamaq üçün yeniləşdirilmiş orfoqrafiya qaydalarını hazırlayıb ümumxalq müzakirəsinə çıxarmışdır. Ölkə miqyasında 2017-ci ilin dekabrından 13 sentyabr 2018-ci il tarixədək 9 ay davam edən orfoqrafiya müzakirələri çoxsaylı dilçilik problemlərini diqqət mərkəzinə çıxarmış və elm adamlarını həmin problem məsələlərin həllinə səfərbər etmişdir. İctimai müzakirələr, eyni zamanda, ana dilinə - dövlət dilinə münasibətdə azərbaycançılıq mövqeyindən çıxış edənlərlə yanaşı, bəzi hallarda hələ də müxtəlif dillərdən alınma sözlərin müdafiəçiləri olanların da fəal mövqedə olduğunu nəzərə çarpdırmışdır.

Bununla belə, gərgin elmi müzakirələr şəraitində keçən debatlardan sonra "Azərbaycan dilinin orfoqrafiya qaydaları" təsdiq edilmək üçün Nazirlər Kabinetinə təqdim olunmuş, həmin qaydalar əsasında xalqımızın milli maraqlarına və dövlətçilik prinsiplərinə, ən başlıcası isə, Azərbaycan dilinin qrammatik quruluşuna cavab verən yeni orfoqrafiya lüğətinin hazırlanmasına start verilmişdir. 2019-cu ilin birinci yarısında yeniləşdirilmiş orfoqrafiya lüğəti xalqımıza çatdırılacaqdır. Bundan başqa, son illərdə bir neçə sahə üzrə izahlı lüğətlərin hazırlanıb nəşr edilməsi də dilimizin ümumi mənzərəsini qorumaq, onun daxili potensialını xalqa çatdırmaq və nəticə etibarilə ana dilinin zənginliklərindən istifadə etmək üçün mükəmməl elmi baza yaratmağa xidmət edir. Heç şübhəsiz, bu qeyd olunanlar nə qədər əhəmiyyətli dilçilik faktları olsalar da, tam yetərli deyildir. Mövcud Prezident Fərmanı Azərbaycan Respublikasının dövlət dilinin saflığının qorunması və işlək mexanizmlərinin təkmilləşdirilməsi baxımından, qarşıya daha məsuliyyətli vəzifələr qoyur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında"kı 1 noyabr 2018-ci il tarixli Fərmanında "televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi" nəzərə çatdırılmışdır. Obyektiv şəkildə diqqət mərkəzinə çəkilən bu ciddi nöqsanlar həmin sahələri təmsil edənlərin özləri tərəfindən də eti-

# Prezident İlham Əliyevdən milli-mənəvi dəyərlərin və milli varlığın qorunub saxlanılmasına növbəti dəyərli töhfə

*Prezident Fərmanı Azərbaycanın dövlət dilinin saflığının qorunması və işlək mexanizmlərinin təkmilləşdirilməsi baxımından qarşıya daha məsuliyyətli vəzifələr qoyur*

raf edilir.

Lakin təəssüflər olsun ki, hələ də davam edən bu istiqamətdə təsirli tədbirlərin görülməsinə ehtiyac var. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunda fəaliyyət göstərən monitorinq şöbəsində kütləvi informasiya vasitələrinin, qəzet və jurnalların dili ətrafında keçirilən müzakirələr, həmin müzakirələrdə Mətbuat Şurası üzvlərinin, ekran-efir və mətbuat nümayəndələrinin yaxından iştirakı, ilkin olaraq, dilçi alimlərlə mətbuat işçiləri arasında səmərəli bir dialoq yaratmışdır. Eyni zamanda, bu ilin oktyabr ayında, ilk dəfə olaraq, müğənnilərin, ifaçılıq sənəti ilə məşğul olanların dil xətalarına həsr edilmiş müzakirələrə dair seminar da maraq doğurmuş, diqqətin problemin əsas məqamlarına yönəldilməsinə şərait yaratmışdır. Lakin mətbuat və nəşriyyatlar üzərində monitorinqi daha ardıcıl və sistemli şəkildə qurmağa, aparılan müzakirələr zamanı müəyyən edilmiş nöqsanların aradan qaldırılmasına, irəli sürülən təkliflərin həyata keçirilməsinin təmin edilməsi üçün əlavə tədbirlərə ciddi ehtiyac var.

Fikrimizcə, bu baxımdan, Prezident Fərmanında nəzərdə tutulan Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması və qurumun işinin normal səviyyədə təşkili mətbuat və nəşriyyat işi sahəsində, reklam bazarında dil faktorlarına münasibət üzrə ardıcıl, sistemli və professional nəzarətin həyata keçirilməsi baxımından, faydalı olacaqdır. Bu, bir qədər obrazlı şəkildə desək, bir sıra müstəqil dövlətlərdə tətbiq olunan "dil nazirliyi" funksiyalarını həyata keçirəcəkdir.

Prezident İlham Əliyevin imzaladığı Fərmanda Monitorinq Mərkəzinin qarşısında duran əsas vəzifələr də, konkret olaraq müəyyənləşdirilmişdir: dövlət dilinin tətbiqinə nəzarət etmək, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin etmək. Ümumiləşmiş şəkildə ifadə olunmuş bu vəzifələr kütləvi informasiya vasitələrinin dili üzərində nəzarəti təmin etməklə bərabər, bütövlükdə, ölkəmizdə dövlət dili siyasətinin həyata keçirilməsinin məsuliyyətli və şərəfli vəzifələrinin reallaşdırılmasına geniş üfüqlər açır. Bu baxımdan, yanaşdıqda hazırkı mərhələdə bir sıra mühüm vəzifələrin yerinə yetirilməsinə ehtiyac yaranmışdır.

İlk növbədə, onu qeyd etmək lazımdır ki, Milli Məclisdə qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanuna yenidən baxılmasına və zəruri düzəlişlərin aparılmasına böyük ehtiyac vardır. "İnzibati Xətalar Məcəlləsi"nə az qala Milli Məclisin hər iclasında əlavələr və düzəlişlər edildiyi halda, "Dövlət dili haqqında" Qanunda indiyədək heç bir yeni yanaşma faktına rast gəlinməmişdir. Fikrimcə, dil qaydalarının kobud surətdə pozulması hallarına qarşı da müəyyən təsirli tədbirlərin görülməsinə ehtiyac vardır. İkincisi isə, hesab edirəm ki, qəzet-jurnal redaksiyalarında, xüsusən, nəşriyyatlarda redaktor-korrektor işini bərpa etmək lazımdır.

Bundan başqa, Azərbaycan dilinin orfoqrafiya və orfoepiya lüğətlərinin hazırlanıb ictimaiyyətə çatdırılmasını sürətləndirmək tələb olunur. Çünki dil qüsurlarının bir çoxu sözlərin yazılışı ilə deyilişi arasındakı fərqlərin nəzərə alınması ilə əlaqədardır.

Eyni zamanda, "Müasir Azərbaycan dilinin qrammatikası" adlı kitaba da ciddi ehtiyac yaranmışdır. Bu adda axırıncı çoxcildlik nəşr XX əsrin yetmişinci illərində Azərbaycan Dövlət Universitetində çalışan görkəmli alimlər tərəfindən hazırlanmışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Müasir Azərbaycan dili" çoxcildlik nəşrinin müəllifləri olan görkəmli dilçi alimlər Dövlət mükafatı laureatı adına layiq görülmüşdülər. Bununla belə, həmin qrammatika kitabının nəşrindən keçən yarım əsrdən çox müddətdə, xüsusən, ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra Azərbaycan dilinin leksik tərkibi daha da zənginləşmiş, dildə müəyyən bir milliləşmə prosesi getmişdir. Ona görə də, ölkəmizin tanınmış dilçi alimlərinin cəlb olunması ilə müstəqillik mərhələsinin tələbləri əsasında müasir Azərbaycan dilinin qrammatikası yenidən yazılmalıdır. Bu, həm ali məktəblərin filologiya fakültələri üçün dərslik kimi istifadə olunmaq, həm də, ümumiyyətlə, dil normalarını xalqımıza çatdırmaq üçün son dərəcə əhəmiyyətli bir addım ola bilər.

Onu da qeyd etməliyəm ki, Nəsimi adına Dilçilik İnstitutunda "Müasir Azərbaycan dilinin qrammatikası" kitabının plan-prospekti hazırlanmışdır. Azərbaycan dilinin qrammatikasının bütün şöbələrini: leksika, fonetika, morfologiya və sintaksis bölmələrini əhatə edəcək bir kitabın yüksək elmi-nəzəri səviyyədə hazırlanması üçün ölkəmizin dilçi alimlərinin yaradıcılıq potensialını birləşdirmək lazımdır. Bundan başqa, Azərbaycan dilinin daxili zənginliyini, söz ehtiyatının rəngarəngliyini xalqımıza, yeni nəsillərə çatdırmaq üçün Azərbaycan dilinin sinonimlər lüğətinin hazırlanmasına da diqqət yetirməyimizə böyük ehtiyac var. Müasir elmi-texniki yeniliklərlə əlaqədar Azərbaycan dilinə daxil olan terminlər və onların dilimizdəki münasib qarşılığı olan sözlər haqqında, mütəmadi olaraq, mətbuat vasitəsilə xalqımıza zəruri məlumatların çatdırılması da çaşqınlığın, yersiz uydurmaların qarşısını ala bilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında"kı Fərmanı reklam siyasətinə də yenidən baxmağı tələb edir. Fikrimcə, müstəqil dövlətimizin yeni dil siyasətinin tələbləri baxımından "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa da yenidən nəzər salınmalı, münasib dəyişikliklər edilməlidir. Monitorinq Mərkəzinin reklam məsələlərini diqqət mərkəzində saxlaması günümüzün ən zəruri vəzifələrindəndir. Reklam işinin təşkilinə, bütövlükdə, necə deyərlər, reklam dilinə dair elmi əsərlərin də yox dərəcəsində olması dilçi alimlərimizi düşündürməlidir.

Ümumiyyətlə, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında"kı Prezident Fərmanı çağırış xarakterli mühüm dövlət sənədidir. Bu Fərman Azərbaycan ziyalılarını, dilçi alimləri və müəllimləri, filoloqları dövlət dilinin - ana dilinin qorunmasına və daha da inkişaf etdirilməsinə, dildən istifadənin müasir tələblər səviyyəsinə qaldırılmasına təkan verən və meydan açan konkret və aydın bir strategiyanı dolğun surətdə ifadə edir. Bütövlükdə, bu, dövlət dilinin saflığının qorunmasına, daxili imkanlar hesabına zənginləşdirilməsinə, nitq mədəniyyətinin təkmilləşdirilməsinə dövlət qayğısını tam ifadə edir.

Müstəqil Azərbaycan dövlətinin ana dilinə - dövlət dilinə qayğısı azərbaycançılıq ideologiyasının daha da yetkin ifadəsinə və zənginləşdirilməsinə, ümummilli ideyalarla müstəqil dövlətçilik strategiyasının üzvi surətdə əlaqələndirilməsi yolu ilə ölkəmizdə milli şüurun və müstəqil dövlətçilik təfəkkürünün birgə və bariz surətdə səsləşməsinə işıq salır.

Mühüm siyasi-ideoloji xarakterə və ümummilli mahiyyətə, elmi-praktik əhəmiyyətə malik olan bu Fərman yeni vətənpərvər nəsillərin yetişib hazırlanmasına, azərbaycançı qüvvələrin daha geniş və sistemli şəkildə formalaşdırılmasına meydan açır. İnam var ki, Azərbaycan ziyalıları, ölkəmizin humanitar sahədə çalışan dilçi alimləri, müəllimləri bu Fərmandan irəli gələn ümummilli vəzifələri yüksək səviyyədə həyata keçirmək üçün bütün qüvvələrini səfərbər edəcəklər.

## "Lazerev klub"unda yer alanlar qaragüruhçulardır"



"Əslində "Lazerev klub"u Ermənistanın keçmiş rəhbərləri Koçaryan və Sarkisyan tərəfindən yaradılıb. Məqsəd Rusiyanı Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək və onun məsuliyyətinə, eyni zamanda, Rusiya ilə bölüşmək istəyidir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. O bildirib ki, düzdür, rəsmi Rusiya bunu özünə yaxın qoymasa da, onların cəmiyyətində erməni puluna aldanan və erməni maraqlarını onlardan daha çox əzmkarlıqla müdafiə etməyə çalışan şəxslər tapılıb.

Klubun iclası zamanı Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının yeddinci çağırışında MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə Komitə sədrinin birinci müavini vəzifəsini tutan Konstantin Zatulinin Azərbaycanla bağlı fikirlərinə gəlincə, deputat söyləyib ki, Zatulun və onun kimilər heç bir əqidəsi olmayan, maddi maraq naminə istənilən yol getməyə hazır olanlardır:

"Lazerev klub"unun sonuncu iclası Ermənistanın keçmiş prezidenti Robert Koçaryan tərəfindən təşkil edilmişdi və onun özü də şəxsən iştirak edirdi. Məqsədi Rusiya və Ermənistan cəmiyyətinə hələ də onun güc sahibi və proseslərə təsir etmək imkanına malik olduğunu göstərməkdən ibarət idi. Amma əslində bir qrup insanın toplaşdığı həmin tədbir sadəcə olaraq qaragüruhçuların qurultayından başqa bir şeyə çevrilmədi".

A.Mirzəzadə qeyd edib ki, onların Azərbaycanı hədələməsi, Ermənistan barəsində dünənki günün fikirlərini səsləndirməsi elə həmin auditoriyada da qaldı: "Amma bununla belə, Azərbaycan cəmiyyətində onlara kəskin reaksiya verildi və bildirildi ki, Azərbaycan özünü bu gün müdafiə etmək əzmindədir və qaragüruhçuların heç bir çağırışı və yaxud kimlərinsə özünə dəstək görmək istəyi heç vaxt baş tutmayacaq. Azərbaycan apardığı müstəqil daxili, xarici siyasət nəticəsində özünə güclü dövlət qurub, güclü iqtisadiyyatı var, dünyanın 50 ən güclü silahlı qüvvələri sırasına daxildir və torpaqlarını işğaldan azad edilməsi üçün daim qətiyyətlə mübarizə aparacaq. Koçrayan və Sarkisyan Ermənistanın dünənidir. Düzdür, Ermənistanın yeni hakimiyyəti hələ formalaşmayıb. Ancaq o siyasətlə Ermənistanın heç bir zaman inkişafı ola bilməzdi. Erməni puluna susayan İrəvana yığılan bir qrup Rusiya nümayəndəsinin tədbiri Koçaryanı və onun ətrafındakılarının özünü sakitləşdirməsindən başqa bir şey deyil".

**Nailə Məhərrəmova**

# Hələ sağlığında canlı əfsanəyə çevrilən dövlət xadimi



***Tarixin yaddaşında iz qoymaq hər insana nəsib olmur. Zəkası, ağlı və hünəri ilə tarixin gedişini dəyişmək də hər adamın işi deyil. Uca Tanrı yalnız özünün seçdiyi şəxslərə belə bir tale, qismət yazır. Ulu Öndərimiz Heydər Əliyevin timsalında Azərbaycan xalqı da bəşəriyyətin ən yeni tarixinə öz imzasını yazan dahi bir övlad yetişdirmişdir.***

Onun dühasının işığı ilə biz çətin, mürəkkəb, keşməkeşli yollardan keçərək, öz müstəqil dövləti və bu dövlətin əbədiliyini qorumaq əzmi olan bir millət kimi yetkinləşmiş, möhkəm birliyə və həmrəyliyə qovuşmuşuq. Azərbaycanın müasir tarixinin bütöv bir qərinəsi Ulu Öndərimizin şərəfli adı və möhtəşəm dövlətçilik fəaliyyəti ilə sıx bağlı olmuşdur. Həmin dövrdə xalqımızın əldə etdiyi bütün nailiyyətlərdə, respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatındakı bütün uğurlarda Onun imzası vardır. Xoş gələcəyi naminə fədakarlıqla çalışdığı, zəngin tarixi və mənəvi dəyərləri ilə daim fəxr etdiyi doğma millətinin önündə həmişə cəsarətlə addımlayan Ulu Öndər Heydər Əliyev müasir dövlətimizin banisi, istiqlalımızın böyük öndəridir.

Hələ sağlığında canlı əfsanəyə çevrilən və adı Azərbaycanın rəmzi kimi səslənən nəhəng siyasətçi və dövlət xadimi Heydər Əliyev dünyanın nadir şəxsiyyətləri sırasında özünə əbədi yer tutur. O, müasir bəşər tarixində iki müxtəlif ictimai-siyasi quruluşda hakimiyyət zirvəsinə qalxmağa nail olmuş və əsl fatehlik keyfiyyətləri göstərməyi bacarmış, ömrünün sonuna kimi siyasi mübarizədə yenilməz zəfər sərkərdəsi kimi tanınmışdır.

Azərbaycanın iqtisadi və mədəni tənəzzül dövrü yaşadığı 1969-cu ildə respublika rəhbərliyinə gələn Ulu Öndər Heydər Əliyev dərhal öz təşəbbüskarlığı və işgüzarlığı ilə respublika həyatının bütün sahələrində dirçəlişə nail oldu ki, bu da milli şüurun oyanışı, milli ruhun yüksəlişi və mənəvi tərəqqisi üçün güclü təkan idi. Onun uzaqgörən, müdrik siyasəti xalqımızı keçmiş İttifaqın ən inkişaf etmiş xalqları sırasına çıxardı.

Azərbaycanın başı üzərini məhv olmaq təhlükəsi alanda ikinci dəfə yenidən böyük siyasətə qayıdan Ümummilli Lider Heydər Əliyev özünün fenomenal istedadını, zəngin dövlətçilik təcrübəsini Tanrının və tarixin xalqımıza bəxş etdiyi kövrək istiqlalımızın qorunması və möhkəmlənməsinə yönəltdi. Gənc dövlətimizi vətəndaş müharibəsi təhlükəsindən, siyasi çaxnaşmalardan xilas edərək, öz güclü şəxsiyyəti ilə doğma xalqını yenidən vahid bir məfkurə ətrafında birləşdirdi. Müstəqilliyini yeni bərpa etmiş, amma səriştəsiz, naşı rəhbərlərin bacarıqsızlığı və milli mənafelərimizə zidd mövqe tutması nəticəsində suverenliyi itirmək, parçalanıb məhv olmaq təhlükəsinə məruz qalmış Azərbaycanı xilas etmək missiyası, məhz bu dahi şəxsiyyətin, təcrübəli siyasətçinin üzərinə düşdü. Dahi Öndər Heydər Əliyevin respublikamızda siyasi hakimiyyətə qayıdışı millətimizin və dövlətimizin qurtuluşu idi. Bu qayıdışın bizə hansı uğuru gətirdiyi, müstəqil dövlətimizi hansı səviyyəyə çatdırdığı göz önündədir: bu gün sabitliyə, rifaha, yüksəlişə qovuşmuş Azərbaycan öz iqtisadi inkişaf tempinə görə, hətta dünya miqyasında ön mövqeyə çıxıb.

Bu gün qədirbilən xalqımız Ulu Öndərin siyasi varisi, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətinə və iqtisadiyyatına dərindən bələd olan, respublikamıza rəhbərlik etdiyi illər ərzində regionumuzun nüfuzlu lideri kimi tanınan Möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşib.

***Təmraz Tağıyev,***
***YAP Nərimanov rayon təşkilatının sədri***

## Əlilliyi olan 45 nəfər Naxçıvandakı müalicə müəssisələrinə yola salınıb



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 45 nəfər əlilliyi olan şəxs Heydər Əliyev adına Beynəlxalq Hava Limanından Naxçıvan Muxtar Respublikasındakı müalicə müəssisələrinə yola salınıb. Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, fiziki məhdudiyyətli insanlarla əlaqədar aparılan işlərin bir istiqaməti də onların sağlamlığının bərpasına yönəlib. Müalicəyə göndərilənlərin 19 nəfəri "Duzdağ" Fizioterapiya mərkəzində, 16 nəfəri Darıdağ Arsenli Su Müalicəxanasında,10 nəfər isə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində müayinə olunaraq müalicə kursu keçəcəklər. Yola salınan əlilliyi olan şəxslər onların tibbi-sosial reabilitasiyası, sağlamlıqlarının bərpasına göstərilən qayğıdan razı qaldıqlarını və səmərəli müalicə kursu keçmək üçün yaradılan şəraitə görə minnətdarlıqlarını ifadə ediblər.

## Sahibə Qafarova AŞPA komitəsinin məruzəçisi seçilib




Parisdə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin iclası keçirilib. İclasda komitənin 2019-cu il üçün fəaliyyət proqramı və prioritetləri müzakirə olunub, komitə sədrinin hesabatı dinlənilib. Həmçinin miqrasiya böhranının aradan qaldırılmasında beynəlxalq əməkdaşlığın genişləndirilməsinin rolu, Şərqi Avropadan əmək miqrasiyası və onun bu ölkələrdə sosial-demoqrafik vəziyyətə təsirləri, "Brexit"in miqrasiya məsələlərinə təsiri, Avropa Şurasında miqrantların inzibati həbsinə dair sənədin kodlaşdırılması məsələləri müzakirə edilib. SİA-nın verdiyi məlumata görə, iclasda Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sahibə Qafarova çıxış edərək müzakirə olunan məsələlər barədə fikirlərini bildirib.

Komitə iclasında yeni məruzəçilərin səsverməsi keçirilib. "Kimsəsiz və valideynlərdən ayrılmış miqrant uşaqlar: səmərəli qəyyumluğa ehtiyac" mövzusunda məruzəçi seçilməsi üçün Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sahibə Qafarovanın və portuqaliyalı parlamentarinin namizədliyi irəli sürülüb. Milli Məclisin deputatı S.Qafarova səs çoxluğu ilə "Kimsəsiz və valideynlərdən ayrılmış miqrant uşaqlar: səmərəli qəyyumluğa ehtiyac" mövzusu üzrə məruzəçi seçilib.

## "Bu gün Azərbaycan inkişaf edən ölkədir"



"Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-24" televiziya telekanalına müsahibəsində ölkəmizin inkişafı və qazanılmış nailiyyətlər barəsində danışıldı. Rusiya ilə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyədədir. İqtisadi və digər sahələrdə qarşılıqlı əməkdaşlıq bunu deməyə imkan verir". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Onun sözlərinə görə, bu gün Azərbaycan inkişaf edən ölkədir: "Hər bir sahə üzrə Rusiya ilə Azərbaycanın əməkdaşlığında böyük imkanlar mövcuddur. Azərbaycanın transit imkanlarının genişlənməsi Cənub-Şimal, Qərb-Şərq dəhlizlərinin istifadəyə verilməsi və s. bütün bunlar əməkdaşlığı daha da dərinləşdirir. Ümumiyyətlə götürüldükdə Azərbaycanın inkişafı, bugünkü əldə olunan nailiyyətlər ölkəmizin daha da nüfuzlu şəkildə inteqrasiya olunmasına, qonşu ölkələrlə əməkdaşlığın getdikcə dirçəlməsinə öz töhfəsini verir. İki ölkə arasında əməkdaşlıq əlaqələrinin ildən-ilə daha da inkişaf edir. Azərbaycan Prezidentinin müsahibə zamanı qeyd etdiyi kimi ölkələr bütün sahələr üzrə tərəfdaş, əməkdaşlıq, mehriban qonşuluq münasibətlərinə malikdir. Azərbaycan Prezidentinin müsahibə zamanı ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində söylədiyi fikirlər müasir böhranlardan rifaha çıxış yolları axtaran xalqlar və dövlətlər üçün dəyərli ola bilər".

## Bakı-Tbilisi-Qars sərnişin qatarı nə vaxt yola düşəcək?



Bakı-Tbilisi-Qars dəmiryolu xətti üzrə sərnişin qatarlarının fəaliyyətə başlama vaxtı bəlli olub. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən SİA-ya verilən məlumata görə, Bakı-Tbilisi-Qars marşrutu ilə sərnişin daşınmasının təşkili 2019-cu ilin 3-cü rübündə planlaşdırılır. Qeyd olunub ki, bu məqsədlə 2019-cu ilin birinci rübündə Azərbaycana İsveçrənin "Stadler" şirkətinin istehsalı olan yeni vaqonların gətirilməsi gündəmdədir. İkinci mərhələdə daha 10 vaqonun gətirilməsi nəzərdə tutulur. Vaqonlar ən son texnologiya əsasında hazırlanır.

Qurumdan bildirilib ki, 2017-ci il oktyabrın 9-da Fransanın Belfort şəhərində "Alstom Transportation S.A." şirkətinin "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti üçün istehsal etdiyi birinci sərnişin lokomotivinin (Prima M4) təqdimat mərasimi keçirilib. Artıq iki sərnişin lokomotivi ölkəmizə gətirilib.

# "Nəsillərə əmanət"

*Bu mövzuda YAP Nəsimi rayon təşkilatı və Nəsimi rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr edilmiş anım tədbiri keçirilib*





***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı və Nəsimi rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Nizami Kino Mərkəzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr edilmiş "Nəsillərə əmanət" mövzusunda anım tədbiri keçirilib.***

Tədbir iştirakçıları ilk öncə, Ulu Öndərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Daha sonra YAP Nəsimi rayon təşkilatı tərəfindən partiyanın fəal gənclərinin iştirakı ilə hazırlanmış "Nəsillərə əmanət" video-film nümayiş olunub. Anım tədbirini giriş sözü ilə açan Nəsimi rayon icra hakimiyyətinin başçısı, YAP Siyasi Şurasının üzvü Asif Əsgərov hər il 12 Dekabrda ölkəmizdə və onun hüdudlarından kənarda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım gününün ehtiramla yad edildiyini bildirib. Qeyd edib ki, nəinki Azərbaycan xalqı, eləcə də, dünyanın tanınmış siyasətçiləri, hökumət və dövlət başçıları və xalqları Ümummilli Lideri Heydər Əliyev haqqında xatirələr danışır və müasir dövlətimizin müstəqilliyinin əldə olunmasında, qorunmasında Onun müstəsna xidmətlərini minnətdarlıqla qeyd edirlər: "Nə qədər ki, Azərbaycan xalqı və dövləti var, Ulu Öndər Heydər Əliyev ideyaları da yaşayacaqdır".

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyevin xalq və dövlət üçün gördüyü əvəzsiz işlərdən, xeyirli, gərəkli fəaliyyətdən danışıb. M.Qurbanlı tarixə ekskursiya edərək, Azərbaycanın müstəqillik qazandığı ilk illərdə ölkədə hökm sürən hərc-mərclikdən, xaos və anarxiyadan, xalqın çətin və ağır dövr yaşamasından bəhs edib. Bildirib ki, o ağır dövrdə xalq dövlətimizi üzləşdiyi bəlalardan xilas etmək üçün Ulu Öndər Heydər Əliyevə müraciət etdi: "Dahi Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək, Bakıya gəldi. Apardığı düzgün və məqsədyönlü siyasət nəticəsində, ölkəni məhv olmaq təhlükəsindən xilas etdi. Xalqın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına, hərbi-siyasi sahələrdə böyük uğurlara nail olundu. Bu gün Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilir".

Tədbirdə Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədr müavini, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının idarə heyətinin üzvü, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullayev, YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı və digərləri çıxış edərək, müstəqil Azərbaycanın qurucusu və memarı Dahi Öndər Heydər Əliyevin daim xalqımızın qəlbində və ürəyində yaşayacağını bildirdilər.

Tədbirin sonunda Azərbaycan Respublikasının əməkdar artisti İlqar Muradovun ifasında Ümummilli Lider Heydər Əliyevə həsr edilmiş "Xalq Heydər söyləyəcək" mahnısı ifa olunub.

***ZÜMRÜD BAYRAMOVA***

## "Prezident "Rossiya-24" telekanalına müsahibəsində bir çox mesajlar verdi"



Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-24" telekanalına müsahibəsində bir çox mesajlar verdi. Müsahibəni Azərbaycanın inkişaf konsepsiyasının bəzi ideya prinsiplərinin nümayişi də adlandırmaq olar". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib. O bildirib ki, Azərbaycan Prezidentinin müsahibə zamanı ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində söylədiyi fikirlər müasir böhranlardan rifaha çıxış yolları axtaran xalqlar və dövlətlər üçün dəyərli ola bilər. Ekspert vurğulayıb ki, ölkə başçısının müsahibə zamanı söylədiyi ən maraqlı fikirlərdən biri yeni iş yerlərinin yaradılmasının iqtisadi və demoqrafik inkişafa uyğunlaşdırılması ilə bağlıdır: "Azərbaycan Prezidenti bununla yeni iş yerlərinin yaradılması konsepsiyasının iki mühüm və zəruri hədəfini göstərdi. Birincisi, cəmiyyətin indiki nəslinin işlə təminatını fasiləsiz prosesə çevirmək, ikincisi isə sabahkı insanlarımızın əmək qabiliyyətli həddə çatdığı an üçün hazır iş yerləri yaratmaq. Prezident 20-30 il sonrakı insanlar üçün iş yerlərindən danışanda məhz bu məqamı nəzərdə tutdu".

Ekspert qeyd edib ki, müsahibə zamanı dövlət başçısının Azərbaycana gələn turistlər arasında rusların üstünlük təşkil etdiyi barədə fikrinə sadəcə statistika həvəskarlarının marağına cavab verən fakt kimi baxmaq olmaz: "Prezident burada strateji relslər üstündə dönməz hərəkət sürəti almış Rusiya-Azərbaycan münasibətlərinin yaxınlaşması barədə mühüm bir mesaj verdi. Mesajın mahiyyəti budur ki, münasibətlər təkcə hökumətlər səviyyəsində yox, həm də cəmiyyətlər və insanlar arasında, iqtisadi, siyasi, humanitar, mədəni və əlbəttə ki, turizm sahəsində yaxınlaşır".

## "Azərbaycan-Rusiya münasibətləri bütün sahələrdə inkişaf edir"

"Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-24" televiziya telekanalına müsahibəsində ölkəmizin inkişaf konsepsiyasını təqdim etməklə yanaşı, iki ölkə arasında olan münasibətlərə də toxundu. Dövlət başçısı Azərbaycan-Rusiya arasında münasibətlərin inkişaf edən xətt üzrə davam etdiyini bildirdi". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib.



İki ölkə arasında əməkdaşlıq əlaqələrinin ildən-ilə daha da inkişaf etdiyini deyən deputat söyləyib ki, Azərbaycan Prezidentinin müsahibə zamanı qeyd etdiyi kimi ölkələr bütün sahələr üzrə tərəfdaş, əməkdaşlıq, mehriban qonşuluq münasibətlərinə malikdir: "Ölkə başçısının bu istiqamətdə verdiyi mesajları bir daha göstərdi ki, münasibətlər təkcə hökumətlər səviyyəsində yox, həm də cəmiyyətlər və insanlar arasında, iqtisadi, siyasi, humanitar, mədəni və əlbəttə ki, turizm sahəsində yaxınlaşır. Bunun əsas göstəricilərindən biri Prezident İlham Əliyevin də qeyd etdiyi kimi ölkəmizə gələn turistlərin çoxunu məhz Rusiya vətəndaşlarının təşkil etməsidir".

Müsahibənin Azərbaycanda keçirilən "Bakutel" sərgisi çərçivəsində baş tutduğunu deyən E. Məmmədov söyləyib ki, artıq ölkəmizin XXIV sərgiyə ev sahibliyi etməsi Azərbaycanın inkişafının, əldə etdiyi nailiyyətlərinin göstəricisidir. Deputat söyləyib ki, ümumiyyətlə, Azərbaycan düşmən Ermənistandan başqa bütün qonşu dövlətlərlə səmimi, mehriban dostluq münasibətləri saxlayır: " Lakin bəzən çox təəssüf ki, bunun qarşılığı olmur. Sözdə başqa, əməldə isə tamamilə fərqli münasibət ortaya qoyulur. Lakin münasibətlərin hər iki tərəfdən səmimi olunması arzu olunandır. Bütün qonşu dövlətlər, o cümlədən də Rusiya Azərbaycandan hər zaman sədaqətli qonşuluq, etibarlı tərəfdaş münasibətləri görüb. Təbii ki, qonşu tərəfdən də bunları gözləyirik".

## Azərbaycan müasir texnologiya və innovasiyalardan istifadə etməklə terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə uğurlara imza atıb

***Azərbaycanda aparılan islahatlar pulların leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin gücləndirilməsi istiqamətində uğurların əldə edilməsinə imkan yaradıb. Bu barədə AZƏRTAC-a iqtisadçı ekspert Vüqar Bayramov deyib.***



Ekspert qeyd edib ki, Avropa Şurasının MONEYVAL Komitəsinin qiymətləndirməsi göstərir ki, Azərbaycan son illər uğur əldə edən əsas ölkələrdən biridir. Nəzərə alsaq ki, söhbət Avropanın beynəlxalq baxımdan kifayət qədər əhəmiyyətli qurumunun araşdırmasından gedir, aparılan islahatlar ölkəmizdə çirkli pulların yuyulması, pulların leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin gücləndirilməsi ilə yanaşı, yeni bir modelin tətbiqini də həyata keçirir. Azərbaycanın bu sahədə apardığı islahatlar və tədbirlər beynəlxalq standartlara cavab verir. Mövcud qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğun olaraq tətbiq edilən qaydaların sözügedən sahədə uğurların əldə edilməsinə imkan verməsi ilə yanaşı, Azərbaycan müasir texnologiya və innovasiyalardan istifadə etməklə, çirkli pulların yuyulması, terrora qarşı mübarizədə uğurlara imza ata bilib. Azərbaycanın bu sahədə əldə etdiyi uğurlar təqdirəlayiqdir. Ölkəmiz, bütövlükdə, bu sahədə şəffaflığın gücləndirilməsi və pulların leqallaşdırılmasına qarşı mübarizəni daim davam etdirir.

"Avropa Şurasının MONEYVAL Komitəsinin Azərbaycan Respublikasının pulların leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sistemini müsbət dəyərləndirməsi ölkəmizdə aparılan uğurlu islahatlara bir qiymət kimi xarakterizə olunur. Genişmiqyaslı islahatlar həm də bu sahədə şəffaflığın artırılmasına, innovativ metoda əsaslanan sistemin qurulmasına, ən əsası isə beynəlxalq standartlara uyğun olaraq Azərbaycanda yeni və müasir sistemin qurulmasına gətirib çıxarıb", - deyə ekspert diqqətə çatdırıb.

# Ermənistan tufanqabağı vəziyyətlə üz-üzə



*Paşinyan həm qapıçı və müdafiəçi, həm də yarımmüdafiəçi və hücumçudur*








***Artıq Ermənistanda keçiriləcək növbədənkənar parlament seçkilərinə sanılı günlər qalıb. İşğalçı ölkədə tufanqabağı vəziyyət hər gün kəskinləşməkdədir. Ermənistan politoloqlarının sözlərinə görə, seçki günü yaxınlaşdıqca, Paşinyan əleyhdarları fürsət gözləyir. İndi o, həm qapıçı və müdafiəçi, həm də yarımmüdafiəçi və hücumçudur.***

Bir məqamı da vurğulamaq lazımdır ki, edilən dəyişikliklərə görə, proporsional seçki sisteminə keçid, partiyalar üçün seçki baryerinin 5%-dən 4%-ə, bloklar üçün isə 7%-dən 6%-ə endirilməsini nəzərdə tutur. Eyni zamanda, koalisiya qurmaq üçün müddət 6 gündən 10-a qədər artırılır. Bu günə kimi, baş verənlərə əsasən, demək olar ki, Ermənistanın baş nazir əvəzi Nikol Paşinyan müxalifəti seçkidə iştiraka razı salmaqla, heç də bütün maneələri dəf edə bilməyib. Xüsusilə də, Paşinyanın Rusiya ilə münasibətlərini normallaşdıra bilmədiyi üçün onun hər an sürprizlə üzləşə biləcəyini demək mümkündür. N.Paşinyanın yeri gəldi-gəlmədi, Dağlıq Qarabağ məsələsi ilə bağlı kəskin mövqe nümayiş etdirməsi də seçkilərdə üzləşə biləcəyi təhlükələri neytrallaşdırmaqla daha çox bağlıdır. Erməni ekspertlərin şərhləri də bunu təsdiqləyir.

Birmənalı həqiqətdir ki, bu gün Ermənistanın bir dövlət olaraq varlığını davam etdirə bilməsi Azərbaycanla normal münasibətlərin qurulmasından, işğal siyasətindən əl çəkməsindən asılıdır. Əks- təqdirdə, Ermənistanın çöküşü davam edəcək, ölkə daha böyük sürətlə tənəzzül girdabına yuvarlanacaqdır.

Bunu, əslində, bütün dünyada, o cümlədən, Ermənistanın özündə də kifayət qədər aydın görürlər. Ermənistanın "İravnuk" qəzeti yazır ki, Yerevan qonşu ölkələrin hamısı ilə münasibətlərini normallaşdırmasa, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmasa, hakimiyyətdə kimin olmasından asılı olmayaraq, ölkədə hansısa iqtisadi tərəqqidən danışmaq mümkün deyil.

Qəzet, bu mənada, Nikol Paşinyanın hakimiyyətə gəlişi zamanı verdiyi vədlərin yerinə yetirilməsinin mümkünsüz olduğunu, əslində, cəmiyyətdə baş nazirə inamın sürətlə əriyib getdiyini də, xüsusi olaraq diqqətə çatdırır.

## "Bu ağır, çətin vəziyyətdən xilas üçün Ermənistanın yeganə yolu var, o da bizim torpaqlarımızdan çıxmaqdır"

Azərbaycan uzun müddətdir ki, işğalçı ölkəyə çox aydın şəkildə Ermənistanın xilasının Dağlıq Qarabağ münaqişəsinin həllindən keçdiyini açıq şəkildə bildirir. Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda çıxışı zamanı bu mövzuya toxunan Prezident İlham Əliyev bildirib: "Ermənistan işğalçılıq siyasətinə görə böhran və tənəzzül içindədir. Rəsmi statistikaya görə, orada yoxsulluq 30 faizə, amma real vəziyyətdə 50 faizə çatır. Kütləvi işsizlik, depopulyasiya, insanların kütləvi şəkildə köçü baş verir. İqtisadi inkişaf üçün heç bir əsas yoxdur. Heç kim investisiya qoymaq istəmir, bazar məhduddur və xarici bazarlara çıxış yoxdur. Bu mövcud problemlər üstəgəl onların işğalçılıq siyasəti, faktiki olaraq, əvvəlki kriminal rejimin çökməsinə gətirib çıxardı. Amma biz görürük ki, indi yeni hökumət də eyni yolla getmək istəyir. Bu ağır, çətin vəziyyətdən xilas üçün Ermənistanın yeganə yolu var, o da bizim torpaqlarımızdan çıxmaqdır. Ondan sonra onların inkişafı üçün şərait yaradıla bilər".

"Jamanak" qəzeti də qeyd edir ki, Ermənistanın təcrid vəziyyətdə qalaraq, inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib. Bir sözlə, Azərbaycanın siyasəti Ermənistanın çöküşünü sürətləndirir: "Prezident İlham Əliyev bizə uğursuz dövlət deməklə tam haqlıdır. Ölkədə sosial-iqtisadi tənəzzül dərinləşir, yüksək səviyyədə verilən vədlərə baxmayaraq, maddi rifah halı çox aşağıdır. Müharibə vəziyyətində olduğumuz Azərbaycan, bu mənada, iqtisadi inkişafını əsas gətirərək, açıq bəyan edir ki, Ermənistanla müqayisədə çox irəlidədir. Əslində, real vəziyyət və beynəlxalq qiymətləndirmələr də bunu göstərir".

Ermənistanın "Armenianreport" saytı isə bildirir ki, Yerevanın diqqət yetirməli olduğu məqamlardan biri də Azərbaycanın hərbi gücüdür. Saytda Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda çıxışı zamanı Prezident İlham Əliyevin fikirlərinə də diqqət yetirilir: "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın. Qoy Ermənistan bu xülyalarla yaşamasın. Qoy Ermənistan rəhbərliyi öz xalqını aldatmasın. Biz bütün imkanlardan istifadə edirik və edəcəyik ki, ərazi bütövlüyümüzü bərpa edək və bu istiqamətdə çox önəmli addımlar atılmışdır".

## Rusiya geri çəkilir: Boltonun Qarabağ təklifinin səbəbi

Göründüyü kimi, işğalçı ölkədə getdikcə kəskin hal alan siyasi mübarizə parlament seçkilərinin sürprizlərlə üzləşəcəyi də labüddür. Belə ki, nəzərə almaq lazımdır ki, Tramp administrasiyasının ən vacib fiqurlarından sayılan Boltonun regiona səfəri də bu ittihamlara hansısa əsaslar verir. Belə ki, səfər öncəsi və səfər ərəfəsində belə fikirlər səslənirdi ki, Ermənistanın yeni hakimiyyəti Dağlıq Qarabağ konfliktinin həlli istiqamətində hansısa ciddi addımlar atmalı, heç olmasa, ilkin mərhələdə işğal olunmuş torpaqların bir qismini geri qaytarmalıdır. Təbii ki, Ermənistanda seçki zamanı da bu amilə əl atacaqlar. Hamıya bəllidir ki, Ermənistanda böhranın əsas səbəbi Dağlıq Qarabağ konfliktinin həll edilməməsidir. İstər köhnə iqtidar, istərsə də yeni iqtidar Qarabağ problemini həll etmədən Ermənistanı böhrandan çıxara bilməyəcək. Bu baxımdan da, Bolton Ermənistanda nəinki ABŞ-ın, həm də Qərbin ümumi çağırışını səsləndirdi. Təbii ki, bu çağırışlar daxili siyasi məsələlərdə hər iki qrup tərəfindən ciddi şəkildə istifadə olunacaq. İndi əsas məsələ konfliktin həllində əhəmiyyətli irəliləyişlərin əldə olunmasıdır. Bu irəliləyişlər isə torpaqlar azad olunmadan mümkün deyil.

Politoloqların sözlərinə görə, əgər seçkidən sonra hakimiyyətə gələn yeni qüvvələr Ermənistanın inkişafı yolundakı ən əsas maneəni aradan götürmək istəsələr, onda Azərbaycan danışıqlara başlayacaq. Əkstəqdirdə, Ermənistanda köhnə vəziyyət davam edəcək və bu fonda müharibə qaçılmaz olacaq. Bu baxımdan da, müzakirələri, məhz seçkilərdən sonrakı xətt formalaşdıracaq.

## Seçki ərəfəsi oyunlar Paşinyanın mövqelərini necə zəiflədir?

Ermənistanda erkən parlament seçkiləri ərəfəsində baş verən hadisələr Nikol Paşinyanın mövqelərinin zəifləməsinə işarədir. Yuxarıda qeyd etdiyimiz məqamlar Paşinyanın təkcə ölkə daxilində deyil, həm də xarici siyasətdə uğursuzluqlarını təsdiqləyir. Xüsusilə də, işğalçı ölkədə insanlar çətin vəziyyətdə yaşamaqda davam etməsi, ölkədə işsizlik, sosial vəziyyət, üstəgəl, Paşinyan hakimiyyətdə olduğu müddətdə bu vəziyyətin yüngülləşməsinə istiqamətlənmiş heç bir addım ata və islahatlar apara bilməməsi bir daha aydın şəkildə göstərir ki, seçki günü çox çətin hal almaqla yanaşı, həm də sürprizlər də qaçılmaz olacaq və Paşinyan da bu manevrlərlə də çox uzağa gedə bilməyəcəyinin fərqindədir. Çünki artıq anlayır ki, ona verilmiş vaxt başa çatmaq üzrədir, dekabr seçkilərindən sonra baş nazir vəzifəsinə seçiləcəksə, artıq xalq Paşinyandan konkret addımlar tələb edəcək.

Eyni zamanda, KTMT ilə münasibətləri pisləşdirməsi, baş katib postunu əldən verməsi Paşinyanın seçki ərəfəsində nüfuzunu da xeyli aşağı salıb. Təkcə ölkə daxilində siyasətçilər və ekspertlər deyil, rusiyalı ekspertlər də onun davranışlarını ciddi tənqid edirlər.

Seçki ərəfəsində Paşinyanın bütün açıqlamaları, "islahat" hesab etdiyi iş yerlərini ixtisara salmaq planları, beynəlxalq siyasətdəki uğursuzluqları onun vəziyyətini daha da ağırlaşdırır. Dekabrın 6-da Sankt-Peterburqda keçiriləcək KTMT üzv dövlətlərinin görüşündə çox böyük ehtimalla baş katib postunu da itirəcək. Bu isə Paşinyan üçün çox ağır zərbə olacaq.

Bir neçə gün əvvəl Respublika Partiyasının parlament fraksiyasının rəhbəri Vahram Baqdasaryan deyib ki, Paşinyan hakimiyyətini daha əvvəl xəbərdar etmişdim ki, əgər Yuri Xaçaturovla bağlı cinayət işi açılması və onu vaxtından əvvəl geri çağırmaq niyyətləri varsa, bu barədə öncədən KTMT üzv dövlətləri məlumatlandırılmalıdır. O, vurğulayıb ki, bu, edilmədi: "Əlaqələrin kəskinləşməsi və gərginlik bundan sonra başlandı və bizim bu vəzifəni itirməyəcəyimizi təxmin etmək mümkün idi".

Paşinyan üçün ikinci böyük zərbə isə Belarus nümayəndəsi, Bakı hərbi məktəbinin məzunu Stanislav Zasın baş katib vəzifəsinə təyin edilməsi ola bilər. Hətta bu şəxs olmasa belə, təşkilatda növbə Belarusundur. Prezident Lukaşenko isə hələ bir neçə gün əvvəl KTMT-nin baş katibi vəzifəsinə üç namizəd irəli sürə biləcəyini bildirmişdi.

Bir sözlə, bu ağır və çətin vəziyyətdən xilas üçün Ermənistanın yeganə yolu var, o da bizim torpaqlarımızdan çıxmaqdır.

**A.SƏMƏDOVA**

# Həmişə öyrədib, öyrənən müəllimə



***Onu həmişə və hər yerdə mütaliə edən görərsən. Əlində kitab-dəftər əskik olmaz. Hər hansı bir dilçiliyə aid mövzunu bütün dəqiqliyi və dərinliyi ilə öyrənməsə, əl çəkməz.***

Heç vaxt kimdənsə eşitdiyi, doğru-dürüstlüyünə əmin olmadığı mətləbdən danışıb, mübahisəyə və müzakirəyə qarışmaz. Özünün tam əmin olduğu dilə aid bir faktın şübhə obyektinə çevrilməsinə də yol verən deyil. Sözündə möhkəm, yolunda israrlı, mülahizələrdə məntiqlidir. Sözünü küləyə verən deyil, kişi kimi qadındır. Harada oxuyubsa, harada işləyibsə, özünün kişi kimi qadın olduğunu sübuta yetirib. Bütün kollektiv onu kişi qeyrətli qadın adlandırır. Nahaq yerə deməyiblər ki, dünyanın yükünü yaxşı adamlar öz çiynində daşıyır. Bütün bunları elə-belə, sözgəlişi demirik. İndinin özündə də cəmiyyətdə xisləti kamil, əməli saleh, sözü bütöv adamlara böyük ehtiyac var. Savadı, biliyi öz yerində, çalışıb, oxuyub-öyrənməklə artırmaq olar, amma insanlıq, adamlıq Allah vergisidir. Bunu pulla, çox oxumaqla qazanmaq olmaz. Haqqında danışmaq istədiyim müəllimə ilə bağlı yazıma bu cür müqəddəmə ilə başlamağım da təsadüfi deyil. Çünki o, məhz belə adamdır. Cəfərova Taisə Sarı qızı gözlərini bu dünyaya Ağstafa şəhərində açıb. Orta məktəbi bitirib, M.F.Axundov adına Xarici Dillər İnstitutunun ingilis və Azərbaycan dilləri fakültəsinə daxil olub, 5 ildən sonra oranı böyük müvəffəqiyyətlə bitirib və orada işləməyə başlayıb. Taisə xanım sonradan pedaqoji instituta dəvət alır və çox yüksək fəaliyyəti ilə nəzər-diqqəti cəlb edir. İllər ötüb keçsə də, yaş həmin yaş olmasa da, Taisə xanım, maşallah, yenə həmin-həmindir. Gənclik nəşəsi ilə çalışır, tələbələrinə ingilis dilini yeni ruhda (innovasiya) yeni məzmunda tədris edir.

Taisə müəllimə dərs verdiyi tələbələrin həyatda və sənətdə qazandığı hər bir uğurunu özünün ən böyük qazancı hesab edir. Bütün kollektiv Taisə xanıma bu uğurlu və qiymətli fəaliyyətdə ən yüksək nailiyyətlər arzu edir. Ona uzun ömür, can sağlığı və yeni-yeni uğurlar arzulayırıq.

***İsmayılova Aygün,***
***İngilis dili kafedrasının dosenti***

# Adı tarixin əbədiyyət səhifəsinə yazılmış Lider!

## *YAP Tərtər rayon təşkilatı Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirib*



***Dünən Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar YAP Tərtər rayon təşkilatının qərargahında rayon gənclər birliyinin təşkilatçılığı ilə dəyirmi masa keçirilib.***

Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən video-çarxın nümayişi ilə başlayan tədbirdə dahi şəxsiyyətin Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında həyata keçirdiyi layihələrə, gördüyü işlərə və göstərdiyi misilsiz xidmətlərə bir daha nəzər salınıb. Sonra Ulu Öndərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad olunub. Anım mərasimində çıxış edən YAP Tərtər rayon təşkilatı gənclər birliyinin sədri Emin Pənahov bildirib ki, 12 dekabr Ulu Öndər Heydər Əliyevin anım günü kimi qeyd olunur: “Öz həyatını xalqının rifahına, ölkəsinin inkişafına həsr edən Ulu Öndər Heydər Əliyev dühası, zəngin dövlətçilik təcrübəsi sayəsində keçmiş SSRİ kimi dünyanın ən böyük dövlətinin rəhbərliyinə yüksəlib. Ümummilli Lider Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəni keçmiş SSRİ-də geridə qalmış aqrar ölkədən ən qabaqcıl yerlərə çıxardı. Dahi rəhbər hələ sovet dövründə ölkəmizin idarə olunmasında azərbaycanlı kadrların irəli çəkilməsinə, xüsusilə, gənclərə xüsusi diqqət ayırdı”.

Tədbirdə YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov çıxış edərək bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim Ümummilli Lider Heydər Əliyev ölkəmizin iqtisadi və siyasi xəttini müəyyənləşdirib, respublikamızın inkişaf etməsi üçün əlindən gələni əsirgəməyib: “Bu gün Ümummilli Liderin müəyyən etdiyi proqram Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycanda dünya əhəmiyyətli layihələr həyata keçirilir və ölkəmiz regionda söz sahibinə çevrilib”.

Tədbirdə -Heydər Əliyev Mərkəzinin işçisi, Səhləbad kənd tam orta məktəbinin müəllimi Səbuhi İbrahimov, Heydər Əliyev Mərkəzinin işçisi Jalə Əlizadə, Mamırlı kənd tam orta məktəbin müəllimi Səbuhi Kərimov, Kəngərli kənd tam orta məktəbin müəllimi Valeh Əliyev Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs ediblər.

***R.HÜSEYNOVA***

# Paytaxtın “Abad məhəllə”lərində idman yarışlarına start verildi



Ölkə başçısı İlham Əliyevin tapşırıqlarına əsasən ölkəmizin hər bir guşəsində, o cümlədən, paytaxtımız Bakı şəhərinin bütün rayonlarında, qəsəbə və yaşayış sahələrində genişmiqyaslı abadlıq və quruculuq işləri aparılır, nümunəvi yeni abad məhəllələr salınır. “ABAD məhəllə” layihəsi çərçivəsində abadlıq və yaşıllaşdırma tədbirləri həyata keçirilir, məhəllələrdə futbol, basketbol meydançaları və digər idman qurğuları da quraşdırılaraq əhalinin, xüsusən, yeniyetmə və gənclərin istifadəsinə verilir. Artıq bir neçə gündür ki, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən “ABAD məhəllə” layihəsi çərçivəsində paytaxt rayonlarının ərazilərində yeni yaradılmış abad həyətlərdə məhəllələrarası futbol və şahmat yarışlarının təşkili və keçirilməsinə başlanılıbdır.



Yeni salınan məhəllələrdə mini-futbol və şahmat turnirləri çərçivəsində ilk yarışa Nizami rayonunda start verilib. Nizami rayon bələdiyyəsinin mini-futbol meydançasında start götürən turnirin rəsmi açılış mərasimində Nizami rayon icra hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Nizami rayon Gənclər və İdman İdarəsinin rəisi Ziyad Əzizov və digər rəsmi şəxslər iştirak etmiş, yarış iştirakçılarını salamlayaraq, onlara uğurlar arzulayıblar. Sonra ilk oyun keçirilib. Turnir çərçivəsində eyni gündə Yasamal və Nərimanov rayonlarında 2 həyətdə şahmat yarışlarına, Xəzər rayonunda isə mini-futbol yarışına başlanılıbdır.

Paytaxtın rayonlarında yeni istifadəyə verilən “ABAD məhəllələrdə” Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, eləcə də, paytaxtın rayon gənclər və idman idarələrinin təşkilatçılığı ilə keçirilən mini-futbol və şahmat üzrə turnirlər 2 mərhələdə - rayondaxili və şəhər final mərhələsi üzrə keçiriləcəkdir. Ümumilikdə, hər iki mərhələ üzrə keçiriləcək mini-futbol yarışlarında 130 komanda tərkibində 1300 nəfər, şahmat yarışlarında 200 nəfər yeniyetmənin (ümumilikdə, 1500 nəfər) iştirakı nəzərdə tutulubdur.

***R.HÜSEYNOVA***

# Arzu Nağıyev: “Ermənistanın builki qışı daha bərbad ola bilər”



“Paşinyan əvvəlcədən yeni ilə qədər seçkilərin keçirilməsi və qələbə qazanmasına çalışırdı. Çünki Ermənistan üçün qış həddindən artıq sərt gələcək”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Arzu Nağıyev deyib. O bildirib ki, bu gün Ermənistanın həm logistik, həm də iqtisadiyyatla bağlı mövcud problemləri onların builki qışını daha bərbad vəziyyətə gətirib çıxara bilərdi: “Çünki, bu gün Ermənistana gələn hər hansı yük iki dəmiryolu - Gürcüstan və İran xəttindən gələ bilər. Lakin Gürcüstandan daşınmaların da avtomobil yolları vasitəsilə həyata keçirildiyini nəzərə alsaq bu ölkədə qışla bağlı böyük problemlərin yarandığını deyə bilərik”.

Ermənistanda iqtisadi problemlərlə yanaşı, siyasi problemlərinin də yaşandığını deyən A.Nağıyev söyləyib ki, düşmən ölkənin bu problemlərlə üzləşməsinin əsas səbəbi onun həm Qərb, həm də Rusiya yönümlü olmasıdır: “Bu cür siyasət həyata keçirmək qeyri-mümkündür. Ermənistan dəfələrlə bəyan edib ki, Rusiya Dağlıq Qarabağ məsələsi həll olunana qədər bizə lazımdır. Hətta ABŞ prezidentinin müşaviri Con Bolton Ermənistanda səfəri zamanı Paşinyana bildirmişdi ki, tarixə vararaq, özünüzün əsiri olmayın. Bu da Ermənistana Azərbaycan və Türkiyə ilə düşmənçilik münasibətində olmamağa bir çağırış idi”.

Politoloq deyib ki, bu gün Ermənistanın böyük strukturlarında gedən yoxlamalar zamanı böyük yeyintilərin olduğu üzə çıxır: “Bundan başqa Ermənistanın hərbi baxımından ciddi problemləri var və ən pisi odur ki, Ermənistan belə vəziyyətdə seçkilərə gedir. Bu problemlərin olması Paşinyan tərəfdarlarının azalmasına da səbəb olub. Son mitinqlərdə də bunu görmək mümkündür. Çünki, mitinqləri idarəetməklə hakimiyyəti idarə etmək arasında mühüm fərqlər var”. A.Nağıyev qeyd edib ki, Paşinyan hazırda qubernatorları dəyişmək, müxtəlif vədlər verməklə seçkilərdə nəyin bahasına olursa-olsun qalib gəlmək istəyir: “Hətta seçkinin uduzması ilə bağlı ehtimallar olsa belə, bu, inandırıcı görünmür. Paşinyan birmənalı olaraq qalib gələcək. Amma əsas məsələ bundan sonra baş verəcək proseslərdir”.

***Nailə Məhərrəmova***

# Yalanların içində qovrulan uğursuzlar

*Və ya "qozbeli qəbir düzəldər"*

***25 ildən də çox müddətdir ki, Azərbaycanın dağıdıcı müxalifəti, daha doğrusu, məntiqə və reallığa müxalif olan satqınlar israrla təkrarlayırlar ki, xalqın dərdinə "şərik olanlardır", "gərgin fəaliyyət" göstərənlərdir.***

Sual yaranır: utanmadan hansı "fəaliyyət"dən danışırsınız? Siyasi ölülər olan sizlərin fəaliyyəti ancaq erməni lobbisinə və xarici qüvvələrin tulapayı olan qrantlarına görə, hər cürə alçaqlığı qəbul edərək, ölkədə siyasi sabitliyi pozmaq üçün minimitinqlər düzənləmək, ölkə və millətin azadlığı ilə gələcəyi uğrunda çalışanların abidəsi önünə yığışıb qışqırmaq, yaxud da şəhidlərin məzarlarına yürüş edərək, orada nə isə söyləməkdir?

## Əli Kərimlinin "başmaq seyri"



Elə ötən ay AXCP sədri Əli Kərimlinin "başmaq seyri"nə çıxaraq, 20-30 adamla Şəhidlər Xiyabanına üz tutması radikal müxalifətçilərin aqoniyası idi. Azərbaycan əhli xatırladı ki, sən demə, Ə.Kərimli hələ var, AXCP sədridir və "harasa" yollanıb. Elə həmin an Qərb mediası xəbərlər yaydı ki, "Azərbaycanda müxalifət lideri tutulub". Bax, satqınlıq "titulu"nu qazanmağın nəticəsi. Avropa ölkələrində yaşayan, əxlaq və ağıldan mühacir düşmüş satqınlar dərhal şivən qaldırdılar ki, bəs Qərb, imdad elə, Ə.Kərimli əldən gedir.

Sosial şəbəkələrdə "əldən gedən" Ə.Kərimli özünə təsəlli verərək, "nə yaxşı ki, tutuldum, yoxsa elə zənn edirdilər ki, yoxam" və bu fikirlə özü də "varlığına inanmaq" istədi. Ən başlıcası isə, varlığını Qərbin yadına saldığını düşünüb, xoşhallanırdı. Onu da bildirib ki, aksiyanın, sadəcə, bir məqsədi vardı: "Biz də varıq, biz hələ ölməmişik..."

Bu satqınlar dərk etmək istəmirlər ki, bu ifadə köhnəlib, nimdaşlaşıb və meşin qoxuyur. Çünki artıq 25 ildir ki, çoxdan koma vəziyyətində olan sizin kimi satqınlar Qərbə nökərçilik etməklə sürünürsünüz.

Bir sözdə, bu yerdə "qozbeli qəbir düzəldər" atalar sözü AXCP sədri Ə.Kərimlidən çoxdan yan keçib. Bax, budur, AXCP sədri Ə.Kərimlinin iblis oyunu. Tarix və onun canlı şahidləri Ə.Kərimlinin iblis xislətli hiylələrini heç vaxt unutmayacaq. Necə deyərlər, elin gözü tərəzidir və ən böyük tərəzi də, məhz odur.

***Rəfiqə HÜSEYNOVA***



Siyasətbazlar elə düzəlməsələr, yaxşıdır!

**RƏFİQƏ**

Bu siyasət deyilən məsələ elə bir şeydir ki, həqiqətən də, onun nə dalı, nə də qabağı görünmür. Xüsusilə, bu amil özünü, adətən, seçkilərdən sonra daha çox göstərir. Bütün bunlara baxmayaraq, müxalifət düşərgəsində vaxtilə normal siyasət deyilən bir amili bu gün pis vəziyyətə salıblar.

Müxalifət tərəfi, ümumiyyətlə, siyasətin nə olduğunu qanmamaqla yanaşı, heç özünü də doğru-dürüst apara bilmir. Bilirsiniz niyə? Çünki onların siyasətlərini özləri deyil, məhz başqaları yürüdür! Belələrinə isə siyasətçi yox, siyasətbaz deyilir. Bununla yanaşı, müxalifət siyasətbazları arasında hər cür insana rast gəlmək mümkündür: boş-boş vədlər verən, uydurma, həqiqətə uyğun olmayan, boğazdanyuxarı çıxışlarla lazımsız dividend qazanmağa çalışan, keçmişi olmayan, bu günü müəmmalı, sabahı isə görünməyənlər. Ancaq bütün bu kimi hallara baxmayaraq, həmin siyasətbazlar həyasızcasına özlərini cəmiyyətə olduqlarından fərqli göstərməyə can atırlar. Bu gün də bnlədir. Elə AXCP sədri Əli Kərimli, Müsavatın sabiq başqanı İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı, satqınlar satqını Gültəkin Hacıbəyli, Leyla Yunus, Xədicə İsmayıl, Rüstəm İbrahimbəyov, Cəmil Həsənli... kimi ünsürlərlə yanaşı, yan-yörələrində olan o biri siyasətbazlar...

Həmin siyasətbazlar da danışanda lap mat-məəttəl qalırsan. İndi gəl döz, bunlara dağ versən, dağı "yıxıb-qoyar böyrü üstdə". Elə götürək illərdir səsi çıxmayanları: "VAMBP" sədri Hacıbaba Əzimov, "Azadlıq" partiyasının sədri Əhməd Oruc, AXP sədri Pənah Hüseyn və digər bu kimi şəxslər danışanda adamı az qala xof tutsun. Yağışdan sonra göbələk kimi çıxan bir özü, bir də papkası olan "cırtdan" partiyacıqların sədrləri elə "nəhəng" bəyanatlar verir ki, dilin ağzında quruyur. Onlara deyən yoxdur ki, ay filankəs, sən hara, siyasət hara?.. Siyasətlə-filanla məşğul olma, ay balam, get qrant dilənməyinin ardınca. Nə isə, onsuz da, onlar haqqında 25 ildən çoxdur ki, danışıb-yazırıq, amma düzəlmirlər ki, düzəlmirlər. Elə bu siyaətbazlar düzəlməsələr, yaxşıdır.

## Tailand parlamenti yeni ildən iclas keçirməyə yer tapmayacaq



Tailandın Milli Qanunverici Assambleyası (parlament) Yeni il bayramı ərəfəsində Banqkokun tarixi mərkəzində yerləşən parlament binaları kompleksini tərk etməlidir. AZƏRTAC xəbər verir ki, "Khao Sot" qəzetinin yaydığı məlumata görə, icarə müddəti bitdiyi üçün 1974-cü ildən parlamentin ixtiyarında olan kompleksin yerləşdiyi ərazi Kral mülkiyyəti bürosuna geri qaytarılır. Tailandın ali qanunvericilik orqanı üçün yeni bina isə hələ istifadəyə verilməyib. 2014-cü ildə baş verən hərbi çevrilişdən sonra fəaliyyət göstərən Milli Qanunverici Assambleya - seçilməyən müvəqqəti parlament sessiya keçirmək üçün yanvar ayından başqa bina icarəyə götürməlidir. Parlament üçün yeni kompleksin tikintisi isə yalnız 2019-cu ilin iyun ayında başa çatacaq.

## "Nar" media nümayəndələrinə yeni məhsullarını təqdim edib

Dekabrın 6-da "Nar" "Bakutel" XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və İnformasiya Texnologiyaları Sərgisi çərçivəsində media nümayəndələri ilə görüş keçirilib və ən son məhsullarının təqdimatını edib. Şirkətin nümayəndəsi Kənan Məsimov "Nar"ın Azərbaycan telekommunikasiya bazarında ilk dəfə tətbiq etdiyi onlayn TV - "Nar TV" və "Nar Wi-Fi" haqqında ətraflı məlumat verib.




Bildirib ki, abunəçilərə rahat şəkildə sevdiyi kanalları izləmək imkanı yaradan "Nar TV" mobil tətbiqini telefonlara və tabletlərə yükləməli, "Nar" nömrəsindən istifadə edərək qeydiyyatdan keçməlidir. Bundan sonra abunəçilər istənilən məkanda və vaxtda smartfonlarında 100-ə qədər Azərbaycan, regional və beynəlxalq kanallara rahat şəkildə baxa bilərlər. Məlumat verilib ki, "Nar TV" tətbiqini yükləyən istifadəçilər idman, əyləncə, uşaq, film, xəbər kanallarına bir ay ərzində pulsuz baxa biləcəklər. Həmçinin media nümayəndələrinə "Nar TV"nin üstünlükləri barədə də danışılıb və əyani göstərilib.

Mətbuat konfransında "Nar"ın sərgidə təqdim etdiyi digər məhsul - "Nar Wi-Fi" haqqında da məlumat verilib. Qeyd olunub ki, bu internet paylayıcısı sayəsində abunəçilər istənilən məkanda sərfəli qiymətə portativ yüksək sürətli internetə (LTE/4G) çıxış əldə edəcəklər. Bunun üçün müvafiq tarifli SIM kart ruterə daxil edilir və enerji mənbəyinə qoşulduqdan sonra qurğu avtomatik olaraq işə düşür. Otuzdan çox cihaz eyni anda internetə qoşula bilir. "Nar Wi-Fi" ev, bağ, ofis və biznes məkanlarını fiber-optik kimi sürətli internetlə təmin edən naqilsiz texnologiyadır. "Nar Wi-Fi" ilə internet ADSL ilə müqayisədə daha sürətlidir və abunəçilərə 60 GB-a qədər limitsiz internet paketləri təqdim edilir.

Daha sonra media nümayəndələri "Nar" stendinə dəvət edilib və mobil operatorun yeni texnologiyaları ilə əyani tanış olublar. "Azerfon" şirkəti ("Nar ticarət nişanı) 2007-ci il martın 21-də fəaliyyətə başlayaraq qısa müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərinin birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkənin 97 faizini əhatə edir və 7300-dən artıq baza stansiya ilə 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

## AzerTelecom "BakuTel 2018" sərgisində qabaqcıl telekommunikasiya xidmətlərini təqdim edir




Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom cari ilin 7dekabr tarixinədəkBaku Expo mərkəzində keçirilən "BakuTel 2018" 24-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi və konfransında müvəffəqiyyətlə iştirak edir.

Belə ki, artıq 10 ildir ki, ölkənin telekommunikasiya sektorunda uğurla fəaliyyət göstərən və öz fəaliyyətində hər zaman peşəkarlıq, müştəri məmnuniyyəti, dinamik inkişaf və innovativlik prinsipini rəhbər tutan şirkət sərgi müddətində yerli və xarici ziyarətçilərə, eləcə də qurumlara internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil şəbəkələrdə nəqletmə, beynəlxalq tranzit, DDoS hücum əleyhinə mühafizə xidməti, FTTx (hər-hansı ünvana fiber-optik kabelin çəkilişi), Data Mərkəz xidmətləri, SİP telefoniya və digər telekommunikasiya xidmətlərinitəqdim edir.

Qeyd edək ki, sərgi günlərində Belarus, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Sinqapur, İran, Ukrayna və digər dövlətlərdən olan şirkətlərin nümayəndələri ilə müxtəlif görüşlər keçirilib, ziyarətçilərə AzerTelecom şirkəti haqqında geniş məlumat verilib, yeni əməkdaşlıq istiqamətləri müzakirə edilib.

Eyni zamanda AzerTelecom şirkətinin stendində "Huawei" şirkətinin Türkiyədən dəvət edilmiş IoT/M2M (Internet of Things - Əşyaların İnterneti/M2M-Machine-to-Machine- Maşınlararası əlaqə) sahəsi üzrə eksperti Sertaç Şamioğlu və AzerTelecom şirkətinin Baş Kommersiya Direktoru Samir Nuriyev tərəfindən müxtəlifsahələrdə "Əşyaların İnterneti"nin tətbiqi haqda info-sessiyalar təşkil olunub, stendin ziyarətçilərinə yeni rəqəmsal texnologiyalar, ağıllı şəhər və idarəetmə, kənd təssərüfatı və digər sahələrdə rəqəmsal texnologiyaların və telekommunikasiyanın rolu barədə müxtəlif təqdimatlar edilib.

AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. AzerTelecom ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. AzerTelecom şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şirkət daim mövcud şəbəkənin yenilənməsi, infrastrukturun dayanıqlılığının artırılması, innovasiyaların tətbiqinə diqqət yetirir.

# İnsan hüquqları və dövlət hakimiyyətinin qarşılıqlı münasibətləri

***Xüsusi diqqətəlayiq başqa bir önəmli məsələ insan hüquqlarının və dövlət hakimiyyətinin qarşılıqlı məhdudlaşdırılmasıdır. Bu ikitərəfli məhdudlaşdırma, bir tərəfdən, bütün insanların hüquqlarının eyni dərəcədə təmin edilməsinə, digər tərəfdən isə, dövlət hakimiyyətinin qeyri-qanuni müdaxiləsinin qarşısının alınmasına imkan yaradır.***

Ə.Abbasov yazır: "İnsan haqları ideyasının təbii hüquqlardan qaynaqlandığını nəzərə alsaq, tam əminliklə deyə bilərik ki, insan hüquqları dövlətdən əvvəl mövcud olmuşdur. Deməli, insanın hüquq və azadlıqları dövlətlərin fərdlərə verdiyi "hədiyyə" olmadığı üçün dövlətin bu hüquqları birtərəfli məhdudlaşdırması da qəbuledilməzdir. İnsan haqları, mahiyyətcə pozitiv anlayış olaraq, insanlara və bəşəriyyətə, ölkənin və dövlətin rifahına xidmət etmək vəzifəsi daşıyır. Bu hüquqların məhdudlaşdırılması, nəinki insana, nəticə etibarı ilə elə dövlətin özünə də ziyan vurur. Tarixə nəzər salsaq, görərik ki, insan hüquqları pozulmuş və azadlıqları məhdudlaşdırılmış ölkələrdə hakimiyyət sabitliyi, əmin-amanlıq, davamlı inkişaf deyil, siyasi və sosial qeyri-sabitlik, çevriliş və çevrilişə cəhdlər, sosial və iqtisadi tənəzzül mövcud olmuşdur. İndinin özündə də ictimai praktika bu qanunauyğunluğu təsdiqləyir.

Hüdudsuz hüquqlar və azadlıqlar da cəmiyyət və dövlət üçün təhlükəli ola bilər. Belə ki, hər bir fərdin öz istədiyini etməsi, azadlıqlarından sui-istifadə etməsi digər fərdin və ya fərdlərin hüquq və azadlıqlarına zərər vura bilər. Bu da, öz növbəsində, cəmiyyətdə qarşıdurmanı, özbaşınalığı, anarxiyanı artırar. Bu baxımdan da, dövlətin və cəmiyyətin mövcudluğu, insan hüquq və azadlıqlarının təmin edilməsi üçün bu hüquq və azadlıqların qanunun aliliyi çərçivəsində məhdudlaşdırılması zəruridir. Necə deyərlər, dəniz də sərhədsiz olarsa, dənizliyini itirər. Zəruri məhdudiyyət (qadağa) prinsipinin gözlənilməsi demokratiyanın və insan haqlarının təmin olunmasında başlıca şərtlərdəndir."

İnsan haqlarından iqtisadi inkişaf naminə imtina edilməsini zəruri və müvəqqəti bir hal kimi məqbul hesab etməyən C.Donelli bunun insan hüquqları ideyası baxımından faciəvi nəticələrə səbəb olduğunu vurğulayır. O, ölkənin iqtisadi cəhətdən inkişafının əhəmiyyətini nəzərə alaraq, bunun üçün insan hüquqlarından müəyyən qədər imtina edilə biləcəyini məqbul sayır, lakin iqtisadi inkişaf naminə insan haqlarına edilən total məhdudiyyətlərin, ümumiyyətlə, lazımsız və hətta zərərli olduğunu diqqətə çəkir. Ehtimal olunur ki, bu ölkələr iqtisadiyyatlarını gücləndirərək insanların siyasi və əsas sosial hüquqlarının təmin olunmasına daha çox diqqət yetirməyə başlayacaqlar.

Fəlsəfə elmləri doktoru Məmməd Rzayevin fikrincə, şəxsiyyəti aksioloji baxımdan araşdırarkən, ilk növbədə, əsas diqqəti bu məsələlərin açılmasına yönəltmək tələb olunur: şəxsiyyəti aksioloji rakursda struktur funksional təhlili etmək, yəni ona insanın sistemli aksioloji təşkili növü kimi yanaşmaqla əsas struktur komponentlərini müəyyənləşdirmək, onun bu səpkidə yerinə yetirldiyi fundamental aksioloji funksiyaları (bunlar, əslində, şəxsiyyətin dünyagörüşü və fəaliyyətinin əsasını təşkil edir) öyrənmək. Qeyd etmək lazımdır ki, insan həyata gəldiyi gündən müəyyən baza dəyərlər (obyektiv xarakterli) sistemi ilə, başqa sözlə deyilsə, dünyanın dəyərlər dünyası kimi təşkil olunması ilə qarşılaşır. Burada dəyərlər maddi və mənəvi strukturlar kimi insanın mənşəyini və təşəkkül prosesini şərtləndirir. Beləlikə, insan dünyaya gələrkən, artıq psixoloji baxımdan həm zahirən, həm də daxilən dəyərlərə bağlı olur. Bu dəyərlər müəyyən normalar, ideallar, maksimlər (davranış etalonu) və imperativlər formasında ifadə olunur. Cəmiyyət fərdə və onun şüuruna münasibətdə obyektiv dəyərli - mənalandırıcı reallıq kimi çıxış edir. Sonuncunun strukturu son dərəcə mürəkkəb olub, müxtəlif sosial-mədəni təsisatların qarşılıqlı təsiri deməkdir.

İnsan şəxsiyyətinin varlığı dəyərlər baxımından sistemli təbiətə malikdir. Dəyərlərin bir sıra atributiv əlamətləri (iyerarxiyalıq, subordinasiya xarakterlilik, sistemlilik və s.) vardır. Sosial insanın varlığının əsas sferası kimi dəyərlərin sistemli vəhdəti mədəniyyətdə daha aydın ifadə olunur. Burada bir-biri ilə əlaqəli bir sıra dəyər səviyyələri mövcuddur: universalilər (mütləq dəyərlər), sosail-tarixi xarakterli dəfərlər və şəxsiyyətin malik olduğu konkret dəyərlər. Şübhəsiz ki, burada insan haqları ən yüksək dəyərlərdən biri hesab olunur.

Müstəqillik tariximiz, Azərbaycan xalqının öz milli-mənəvi köklərinə qayıdışı, milli ruhuna uyğun həyat və düşüncə tərzinin formalaşması illəridir. Dünyanın qədim xalqlarından biri kimi azərbaycanlıların malik olduğu yüksək mənəvi-əxlaqi keyfiyyətlərin qorunub-saxlanılması "keçid dövrü" kimi adlandırılan mürəkkəb bir zamanda dəyərlərin varisliyinin təmin edilməsi, nə qədər çətin olsa da, Ulu Öndərin fədakar qayğı və himayəsi altında böyük uğurlar əldə olundu. Ümumbəşəri və milli-mənəvi dəyərlərin ahəngdar sintezinə nail olmaq istiqamətində möhtəşəm addımlar atıldı. Sovetlər dönəmində məqsədyönlü şəkildə həyata keçirilən milli-mənəvi köklərdən uzaqlaşma siyasətinin, yadlaşma prosesinin nəticələrinin aradan qaldırılması üçün vəzifələr müəyyənləşdirildi.

Görkəmli dövlət xadimi Heydər Əliyev andiçmə mərasimindəki nitqində Azərbaycanda dövlət quruculuğu səhəsində qarşıda duran vəzifələrdən danışaraq, qeyd edirdi ki, yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik-hüquqi dövlət qurulmalıdır. Öz tarixindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən istifadə etməklə, demokratik dövlət quruculuğu yolu ilə getməkdir. "Respublikanın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyəsətin olmasıdır" - deyən Prezident özünün dünya siyasətindəki görkəmli nüfuzuna, tanınmış diplomat və siyasi xadim kimi bacarığına əsaslanırdı. Bu, elə ilk gündən özünü göstərməyə başlamışdı. Prezident seçilməsi ilə əlaqədar olaraq Heydər Əliyevə dünyanın bir çox dövlət başçılarının göndərdikləri təbrik məktubları bunu sübut edir. Son illərdə respublikanın böhran vəziyyətinə salınması iqtisadiyyatın bütün sahələrinə ciddi təsir etmiş və bunun nəticəsində də, vətəndaşların rifah halı olduqca aşağı düşmüşdü. Lakin respublikanın böyük iqtisadi-sosial, elmi-texniki potensialını dərindən bilən Prezident Azərbaycanı ağır vəziyyətdən çıxarmağın düzgün yolunu göstərirdi. "...bir tərəfdən, yaranmış potensialdan səmərəli istifadə etmək, digər tərəfdən isə, yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik" - deyə qeyd edirdi... Prezident Heydər Əliyev respublikanın daxili və xarici siyasətinin əsas prinsiplərinin dünya demokratiyasının açdığı yolla, demokratik prinsiplər əsasında aparılacağını qeyd edərək, xalqı əmin etdi ki, "bu fikirlərə, bu prinsiplərə daim sadiq olacağam". 1993-cü il 10 oktyabr günü Azərbaycan Prezidenti Heydər Əliyevin həyatında, Azərbaycanın tarixində əlamətdar, tarixi bir gün idi. Heydər Əliyevin andiçmə mərasimindəki dərin məzmunlu, parlaq nitqi keçid dövrünün böyük proqram sənədi oldu: "Əlimi Azərbaycan Respublikasının Konstitusiyasına basaraq and içirəm ki, biliyimi, təcrübəmi, qüvvəmi Azərbəycan xalqının, Azərbaycan Respublikasının rifahına həsr edəcəyəm. And içirəm ki, prezident vəzifəsini ali məqsədlər, amallar naminə yerinə yetirərək, Azərbaycən Respublikasının tam müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü təmin etmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. And içirəm ki, Azərbaycan Respublikası Konstitusiyası və qanunlarının həyata keçirilməsinin təminatçısı olacaq, milli mənsubiyyətdən asılı olmayaraq, Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısı olacağam. Azərbaycan Respublikasında azadlığın, demokratik dəyişikliklərin, Azərbaycan Respublikasının demokratik-hüquqi dovlət kimi inkişaf etdirilməsinin təminatçısı olacam. Azərbaycan Respublikasına, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəyəm. Azərbaycan Respublikasının dünya dövlətləri içərisində, dünya birliyində ləyaqətli yer tutmasına çalışacağam.

Cəmiyyət daxilində insan tək yaşamayan, digər insanlarla eyni hüquq və azadlıqları bölüşən bir ictimai subyekt olduğu üçün onun sahib olduğu hüquqlar da ictimai xarakterlidir. Ə.Abbasov göstərir ki, insanlar arasında bir-birinə hörmət və qarşılıqlı məsuliyyətin vicdan, əxlaq, mədəniyyət kimi anlayışların təsiri ilə formalaşması da bir reallıqdır. Bütün bunlar hüquqi nizamlamanın obyektinə çevrilərək, "yumşaq öhdəlik" formasından "sərt öhdəlik" formasına keçir. Məsələn, 1789-cu il tarixində qəbul edilmiş Fransa İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində əks olunmuş müddəalar sonradan dövlətlərin əsas qanunları olan konstitusiyalarında da yer almışdır. Bu müddəalardan aşağıdakılar, xüsusi ilə əhəmiyyətli mənbəyə çevrilmişlər: azadlıq başqasına zərər verməyən hər şeyi etmək imkanından ibarətdir; buna görə hər bir insanın təbii hüquqlarının həyata keçirilməsi yalnız cəmiyyətin digər üzvlərinin eyni hüquqlarından istifadə etməsini təmin edən hədlərlə məhdudlaşdırılır; bu hədlər ancaq qanunla müəyyənləşdirilə bilər. Burada həm insanların, həm də dövlətin maraqlarının qorunması baxımından hüquqların qanuni əsaslarla məhdudlaşdırılmasının labüd olduğu bildirilir. Fransa Bəyannaməsində insan hüququ və azadlıqlarının məhdudlaşdırılmasının kimin edə biləcəyi və necə etməli olduğunun da qanunda əks edilməsi göstərilmişdir. Bütün demokratik cəmiyyətlərdə belə məhdudlaşdırma qanunverici orqan tərəfindən və qanuna əsasən həyata keçirilir. Bunun da çox məntiqi bir əsası vardır. Xalqın iradəsi ilə formalaşan və onu hakimiyyətdə təmsil edən qanunverici orqan xalqın hüquqlarını onun maraqlarına ziyan vurmadan və mənafeyinə uyğun olaraq məhdudlaşdıra bilər. Hüquq və azadlıqların məhdudlaşdırılması konkret insanlara və ya bir kateqoriya insanlara yönəldilmiş olmur. Bu məhdudlaşdırmanın qanunla həyata keçirildiyini və qanunun da hamıya eyni dərəcədə şamil edildiyini nəzərə alsaq, əvvəl söylədiyim fikri təsdiqləmiş olarıq. Qanunların hər bir demokratik dövlətdə konstitusiyaya uyğunluğu tələbi də qərarların özbaşına qəbuluna imkan verməmək şərtidir.

İnsan hüquqlarının məhdudlaşdırılması ilə əlaqədar Ümumdünya İnsan Hüquqları Bəyannaməsində də müddəalar (cəmiyyətə qarşı fərdi öhdəliklərin varlığı, hüquq və azadlıqların BMT-nin məqsəd və prinsiplərinə qarşı istifadə edilməməli olduğu, başqalarının hüquq və azadlıqlarının tanınması və onlara hörmət edilməsi, demokratik cəmiyyətdə əxlaqın, ictimai asayişin və ümumi rifahın şərtlərinə uyğun olaraq, hüquq və azadlıqların məhdudlaşdırılmasının mümkünlüyü mövcuddur.

Bundan başqa, insan hüquqları sahəsində qəbul edilmiş ən mütərəqqi beynəlxalq hüquqi sənəd hesab edilən İnsan Hüquqları və Əsas Azadlıqlar haqqında Avropa Konvensiyasında da insan hüquq və azadlıqlarının dövlətin milli təhlükəsizliyinin, ictimai asayişin və əhalinin sağlamlığının təmin olunması baxımından məhdudlaşdırılması imkanları nəzərdə tutulmuşdur.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 7 dekabr

## B12 vitamini çatışmazlığı nədən təhlükəlidir?



B12 vitamini çatışmazlığı əsəb və psixi pozuntulara gətirib çıxara bilər. Bu vitamin eritrositlərin formalaşması, əsəb sisteminin və DNT sintezinin fəaliyyəti üçün vacibdir. Bu vitamin daha çox balıqda, yumurtada, süd məhsullarında və mayalı ərzaqların tərkibində olur.

AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, vitamin çatışmazlığı əksər hallarda veqanlarda - vitaminli əlavələr qəbul etməyən insanlarda daha çox inkişaf edir. Hər üç haldan ikisində B12 vitamini çatışmazlığı yaşlı adamlarda rast gəlinir. Çünki həmin insanlarda mədədə turşuluğun ifraz olunması dərəcəsinin azalması səbəbindən qəbul etdikləri ərzaq məhsullarından bu vitamin pis mənimsənilir və onlar B12 vitamininini lazımı miqdarda ala bilmirlər.

B12 vitamini ilə problemlər, həmçinin mədə-bağırsaq pozuntuları, o cümlədən Kron xəstəliyi diaqnozu qoyulan, qısa zamanda çəkisini itirən və ya mədə-bağırsaq əməliyyatı keçirən insanlarda müşahidə edilir. Vitamin dərəcəsinin aşağı düşməsinin səbəblərindən biri kimi qıcqırma əleyhinə dərmanlar və ya metforminin (diabet xəstələrinə təyin olunur) qəbul edilməsi göstərilir.

Yorğunluq, zəiflik, qəbizlik, iştahasızlıq və çəkinin azalması, depressiya, dezoriyentasiya, yaddaşın pisləşməsi, ağızda və dildə ağrı hissləri və s. B12 vitamini çatışmazlığının əlamətləridir. Vitamin çatışmazlığı, həmçinin meqaloblastik və ya bədxassəli qanazlığı ilə bağlıdır.

## Bakcell kiçik və orta biznesin "Bakutel 2018" sərgisində iştirakını dəstəkləyir




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti bu günlərdə keçirilən "Bakutel-2018" sərgisindəki stendində innovasiya və texnologiyaları nümayiş etdirməklə yanaşı startapları, kiçik və orta biznesi təmsil edən şirkətlərin tədbirdə iştirakını təşkil edib. "KOB Dəstək" proqramı çərçivəsində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə birgə təşkil olunmuş stenddə "Bakcell"in dəstək göstərdiyi "hesab.az", "iticket", "e-mobile" və bir neçə digər şirkətin göstərdiyi xidmətlər nümayiş olunub.

Azərbaycanın ən böyük onlayn xidmətlər portalı olan "Hesab.az" "Bakcell"in uzunmüddətli biznes tərəfdaşlarından biridir. Öz sahələrində ən innovativ xidmətlərlə seçilən "iticket" və "e-mobile" isə "Bakcell"ə marketinq və reklam xidmətləri göstərən şirkətlərdir. Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından biri olan Bakcell müxtəlif sosial yönümlü və innovasiya layihələri vasitəsilə ölkədə müxtəlif sahələrin dayanıqlı inkişafına öz töhfəsini verir. Gələcəkdə bu istiqamətdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə əməkdaşlığın genişləndiirlməsi nəzərdə tutulur.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Abdullayeva Şəbnəm Nazim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Dostiyeva Zərbəyim Fizuli qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

İsmayıllı rayon Mican kənd sakini Ələkbərov Natiq Əlixan oğluna və onun ailəsinə verilmiş JN-036 F, KOD 40719018 nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Filologiya fakültəsinin ingilis dili müəllimliyi ixtisasının II kurs tələbəsi Osmanova Fidan Qabil qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Nigar Arpadarai: "Əsas yeniliklərimiz əyləncə proqramı ilə bağlı olacaq"



"2019-cu ildə keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisinə hazırlıqlar plana uyğun gedir. Hazırda biletlərə endirim kampaniyası davam edir. Formula 1 azarkeşləri 20 faizlik endirimdən yararlana bilərlər. Azərbaycan vətəndaşları üçün daha 25 faiz endirim nəzərdə tutulub."

Bu sözləri "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) marketinq və kommunikasiya departamentinin rəhbəri Nigar Arpadarai jurnalistlərə müsahibəsində deyib. N.Arpadarai deyib ki, növbəti il aprelin sonunda bütün Formula 1 azarkeşlərinin gözü Bakıda olacaq. Yaxın zamanlarda tikinti işlərinə start veriləcək. İlk öncə Pit binasının tikintisinə başlanacaq. Sonrakı mərhələdə - yanvarda təhlükəsizlik baryerləri və tribunalar quraşdırılacaq.

"Könüllülərin qeydiyyatına yekun vurulub. Bir gündə 6 mindən artıq müraciət daxil oldu. Bu gözəl nəticədir. Ümumiyyətlə könüllülərlə iş proqramı artıq hazırdır. Bu il bir çox gənc həm işçi, həm də könüllü kimi bizimlə əməkdaşlıq edəcək", - deyə N.Arpadarai bildirib. BŞH-nin rəsmisi deyib ki, Azərbaycan Qran-Prisində trasın konfiqurasiyası dəyişmir. Yarış hər il olduğu kimi, şəhərin mərkəzi küçələrində keçirilir. Əsas yeniliklərimiz əyləncə proqramı ilə bağlıdır. Ötən mövsüm konsert proqramları dəyişmişdi. Belə ki, yarışlardan sonra konsert proqramları təşkil olunurdu. Üç dünya ulduzunun konsertindən əlavə, DJ-lərin şousu da təşkil olunmuşdu. Bu il də əsas dəyişiklik konsert proqramları ilə bağlı olacaq. Qeyd edək ki, Bakıda növbəti Formula 1 yarışı gələn il aprelin 26-28-də keçiriləcək.

## Samboçumuz dünya çempionatının bürünc medalını qazanıb



Sambo üzrə Serbiyanın Novi Sad şəhərində keçirilən kadetlər arasında dünya birinciliyində Azərbaycan idmançısı üçüncü yer tutub. Azərbaycan yığmasının baş məşqçisi Bəxtiyar Hacıyev AZƏRTAC-a bildirib ki, çempionatda 78 kiloqram çəki dərəcəsində mübarizə aparan Adil Adilzadə bürünc medala layiq görülüb. Dekabrın 3-də start götürən dünya birinciliyinə bu gün yekun vurulacaq. Azərbaycan dünya çempionatında üç samboçu ilə qatılıb.

## "Məni Messi ilə necə müqayisə edirsiniz?"



Braziilya millisinin əfsanəvi futbolçusu Pele maraqlı açıqlama verib. Qol.az-ın məlumatına görə, ölkəsinin mətbuatına danışan veteran oyunçu "Barselona"nın hücumçusu Lionel Messidən daha yaxşı futbolçu olduğunu söyləyib: "Messinin sadəcə, bir istedadı var. Bütün qolları sol ayaqla vurub. Onu mənimlə necə müqayis edə bilərsiniz? Həm sağ, həm sol, həm də başla qollar vuran birini təkcə sol ayağı ilə qol vuran biriylə qarşılaşdırırsınız? Messinin təkcə bir istedadı var, başla da qol vura bilmir. Maradona da Messidən daha yaxşı idi". Qeyd edək ki, Pele Braziliya millisində 93 oyunda 77 qol vurub.

## UEFA-dan "Qarabağ"a 981 min avro



UEFA növbəti dəfə "Qarabağ" klubuna pul ayırıb. Qurumun Klub Yarışlarının Keçirilməsi Komitəsinin 06.07.2017-ci il tarixli, 38 saylı məktubuna uyğun olaraq, 2017/2018-ci il mövsümü üçün Ağdam təmsilçisinə Çempionlar Liqası iştirakçısı kimi ayrılan 981 min avro vəsait AFFA-nın vasitəçiliyi ilə klubun hesabına köçürülüb. Qeyd edək ki, "Qarabağ" ötən mövsüm ölkəmizi Çempionlar Liqasının qrup mərhələsində təmsil edən ilk klub kimi Azərbaycan futbolunun tarixinə düşüb.

## "Qalatasaray" 18 yaşlı futbolçunu "Yuventus"a satır



"Qalatasaray" gənc futbolçusu Ozan Kabakı "Yuventus"a satıb. SİA-nın məlumatına görə,18 yaşı olmasına rəğmən, əsas heyətin üzvünə çevrilən mərkəz müdafiəçisinin transferi ilə bağlı ilkin protokol imzalanıb. Məlumata görə, Ozanın transferi üçün "Yuventus" "Qalatasaray"a 10 milyon avro ödəyəcək. Bundan başqa, futbolçu üçüncü kluba satılacağı halda "Cim-Bom" transferin müəyyən faizinə sahib olacaq. Qeyd edək ki, Ozan Kabak bu mövsüm 13 rəsmi oyunda forma geyinib.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500